QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 211 (5442) 18 **noyabr** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

## Bakı-Tbilisi-Qars Dəmir Yolu Azərbaycan üçün böyük uğurdur

*Sülh və inkişaf layihəsi olan bu dəmir yolu dünya mətbuatında geniş işıqlandırılır*

Səh 3



**Prezident İlham Əliyev: Xoş niyyətlə gələn bütün qonaqlara öz qapılarımızı açırıq** 2




**Azərbaycan ilə Özbəkistan arasında siyasi əlaqələr yüksək səviyyədədir** 2



**Milli Məclisin plenar iclasında 30 məsələyə baxılıb** 5



**Siyavuş Novruzov: “Bugünkü Müsavatla o biri Müsavat tamamilə başqadır”** 4



**Müdafiə naziri komandanlarla müşavirə keçirib** 4



**Bəhruz Quliyev: “Azərbaycan artıq beynəlxalq tədbirlərin mərkəzi statusunu daşıyır”** 7



7

**Ermənistan ŞOKDA: Gənclər orduda xidmət etmək istəmirlər!**



13

**Qarakənd faciəsindən 26 il ötür**



16

**Şumaxerin bolidi hərracda 7,5 milyon dollara satılıb**



# Azərbaycan ilə Özbəkistan arasında siyasi əlaqələr yüksək səviyyədədir

*Prezident İlham Əliyev Özbəkistanın Baş nazirinin müavinini qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Özbəkistan Respublikasının Baş nazirinin müavini Alişer Sultanovu qəbul edib.***

AZƏRTAC xəbər verir ki, Baş nazirin müavini Alişer Sultanov Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin salamlarını və ən xoş arzularını Prezident İlham Əliyevə çatdırdı. O bildirdi ki, Özbəkistan Prezidenti Şavkat Mirziyoyev dövlətimizin başçısı ilə keçirdikləri görüşləri daim böyük məmnunluqla xatırlayır və deyir: "İlham Əliyev xalqının böyük oğludur". Alişer Sultanov qeyd etdi ki, Özbəkistan Prezidenti ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı imkanlardan tam istifadə edilməsini zəruri sayır. O bildirdi ki, Özbəkistan Prezidenti Azərbaycana səfərini səbirsizliklə gözləyir və bu səfərin səmərəli və məhsuldar keçməsi üçün fəal hazırlıq işləri aparılır. Bu yaxınlarda istifadəyə verilən Bakı-Tbilisi-Qars dəmir yolu barədə danışan Alişer Sultanov layihənin regionda mühüm əhəmiyyətə malik olduğunu vurğuladı.



Prezident İlham Əliyev xoş sözlərə görə minnətdarlığını bildirərək, Özbəkistan Prezidenti ilə keçirdiyi görüşlərdən məmnunluğunu ifadə etdi. Dövlətimizin başçısı ölkələrimiz və xalqlarımız arasında qardaşlıq münasibətlərinin ortaq tarix, mədəni və dil amillərinə əsaslandığını vurğuladı. Prezident İlham Əliyev siyasi əlaqələrin yüksək səviyyədə olduğunu deyərək, dövlət başçıları arasında qarşılıqlı etimadın və beynəlxalq strukturlarda qarşılıqlı dəstəyin olmasının əhəmiyyətini qeyd etdi. Dövlətimizin başçısı, eyni zamanda, ticarət dövriyyəsi, energetika, nəqliyyat və digər sahələrdə əməkdaşlığın genişləndirilməsi üçün səylərin artırılmasının vacibliyini bildirdi.

Prezident İlham Əliyev Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını və ən xoş arzularını Özbəkistan dövlətinin başçısına çatdırmağı xahiş etdi.

# Prezident İlham Əliyev: Xoş niyyətlə gələn bütün qonaqlara öz qapılarımızı açırıq




Bu yazının sərlövhəsinə çıxarılmış sözlər "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 45-ci cildindən götürülüb. Dövlətimizin başçısı Nazirlər Kabinetinin 2011-ci ilin birinci rübünün sosial-iqtisadi inkişafının yekunlarına həsr olunmuş iclasındakı yekun nitqində deyib: "Azərbaycan dünya iqtisadiyyatının bir parçasıdır və biz bütün inteqrasiya proqramlarına çox müsbət baxırıq. Azərbaycanda liberal iqtisadiyyat və işləmək üçün bütün imkanlar vardır. Azərbaycan xalqı qonaqpərvər xalqdır, Azərbaycanda quruculuq-abadlıq işləri, müasir xidmətlərin yaradılması məsələləri, əlbəttə ki, miqrantları cəlb edir. Onu da qeyd etməliyik ki, Azərbaycanda ictimai asayiş çox yüksək səviyyədə qorunur, təhlükəsizlik tədbirləri güclüdür. Şəhərlərimizə xas olan əlamət ondan ibarətdir ki, insanlar özlərini çox rahat hiss edirlər. Azərbaycanda kriminogen durum da çox yaxşıdır. Əlbəttə, bu amillər xaricdən gələnlərə, necə deyərlər, əlavə təkan verir. Xoş niyyətlə gələn bütün qonaqlara öz qapılarımızı açırıq. Ancaq bütün bu işlər qanun çərçivəsində həll olunmalıdır və qanunsuz miqrasiyaya qarşı tədbirlər davam etdirilməlidir".

AZƏRTAC xəbər verir ki, çoxcildliyin 45-ci kitabı Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrikinin mətni ilə başlanır. Çoxcildliyin bu nəşrinə daxil olan materiallar 2011-ci ilin martından may ayınadək olan dövrü əhatə edir.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının rəhbəri, akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin 45-ci kitabında dövlətimizin başçısının həyata keçirdiyi uğurlu xarici siyasətinə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişafının təmin olunmasına, cəmiyyətimizin demokratikləşdirilməsi istiqamətində önəmli nailiyyətlərə və ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapıb.

Bu cilddə Prezident İlham Əliyevin ölkəmizə rəsmi səfərə gələn Yunanıstan, Rumıniya, Ukrayna və Litvanın dövlət başçıları ilə görüşləri zamanı apardığı danışıqlara, imzalanan sənədlərə və mətbuata bəyanatlarına dair materiallar da toplanıb. Azərbaycan Prezidenti bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini regionun inkişafına əngəl olan Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək olmağa çağırıb.

Dövlətimizin başçısının Azərbaycana səfər etmiş İordaniya, Fransa, Rusiya, Latviya, Türkiyə, Çexiya, ABŞ və digər ölkələrin, Avropa Şurasının, YUNESKO-nun, ATƏT-in, Avronest Assambleyasının, beynəlxalq idman federasiyalarının, BP şirkətinin və digər nüfuzlu qurumların yüksək vəzifəli şəxslərini qəbul etməsinə, ölkəmizin ev sahibliyi etdiyi beynəlxalq tədbirlərdə iştirak etmək üçün respublikamıza gəlmiş nüfuzlu nümayəndə heyətləri ilə görüşlərinə dair materiallar da nəşrin bu cildində yer alıb.

Kitaba, həmçinin Prezident İlham Əliyevin Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun açılışında nitqi, Azərbaycan Milli Elmlər Akademiyasının illik ümumi yığıncağında giriş və yekun nitqləri, Bakıda keçirilən X Azərbaycan Beynəlxalq turizm və səyahətlər, II Ümumrespublika daxili turizm sərgiləri ilə tanışlığına dair materiallar, XIV Avrasiya iqtisadi zirvə toplantısının iştirakçılarına müraciəti, Pravoslav Xristian icmasına müqəddəs Pasxa bayramı münasibətilə təbriki, "Rossiya-24" telekanalına müsahibəsi də daxil edilib.

Nəşrin bu cildində dövlətimizin başçısının Masallı, Astara, Sabirabad, Saatlı, İmişli, Ağcabədi, Zərdab rayonlarına səfərləri, ictimaiyyət nümayəndələri ilə görüşləri, bölgələrdə və respublikamızın paytaxtında aparılan abadlıq-quruculuq işləri ilə tanışlığına dair materiallar əksini tapıb. Kitaba "Qeydlər", "Şəxsi adlar", "Coğrafi adlar" göstəriciləri daxil edilib. "Azərnəşr" tərəfindən buraxılan 45-ci cildin hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

## Rəsmi xronika

Azərbaycan Prezidenti İlham Əliyev "Bakı Prosesi"nin 10-cu ildönümünün qeyd edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Azərbaycan Prezidenti İlham Əliyev Latviya Prezidenti Raymonds Veyonisə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Hörmətli cənab Prezident, Latviya Respublikasının milli bayramı - Müstəqillik Günü münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi qəlbdən təbrik edirəm. İnanıram ki, Azərbaycan ilə Latviya arasındakı ənənəvi dostluq münasibətlərinin, qarşılıqlı faydalı əməkdaşlığın inkişafı bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir. Bu əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Latviya xalqına daim sülh və rifah arzulayıram".

* * *

Prezident İlham Əliyev Omanın Sultanı Qabus bin Səidə təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Əlahəzrət, Oman Sultanlığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi yetirirəm. Belə bir xoş gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost Oman xalqına daim əmin-amanlıq və firavanlıq diləyirəm".

# Bakı-Tbilisi-Qars Dəmir Yolu Azərbaycan üçün böyük uğurdur

## *Sülh və inkişaf layihəsi olan bu dəmir yolu dünya mətbuatında geniş işıqlandırılır*

***Azərbaycanın tarixində mühüm hadisələrdən biri kimi yer tutan Bakı-Tbilisi-Qars Dəmir Yolunun istifadəyə verilməsi müstəqil Azərbaycanın əldə etdiyi uğurlar sırasındadır. Bakı-Tbilisi-Qars Dəmir Yolu Xəttinin açılması Azərbaycanın regionda strateji tərəfdaş kimi rolunun daha da artmasında əhəmiyyətli rol oynayacaq. Azərbaycan Prezidenti İlham Əliyevin müstəqil siyasəti, qətiyyəti ilə ərsəyə gələn bu yolun açılması ölkəmizin siyasi mövqeyi, ictimai-iqtisadi və siyasi sabitliyin ən vacib amillərindən biri kimi qiymətləndirilir.***





Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılışı ilə bağlı dünya mətbuatında yer alan məqalələr hələ də davam etməkdədir. Sülh və inkişaf layihəsi olan bu dəmir yolu xəttinin Avrasiyanın sosial həyatına təsir imkanları təhlil edilir, yaxın zamanlarda çoxşaxəli şəkildə onlarla ölkəni özünə cəlb edəcəyi vurğulanır. Belə ki, Türkiyənin nüfuzlu TRT HABER kanalı, ölkənin ən nüfuzlu qəzetlərindən olan “Hürriyyət”, “Aydınlıq”, “Milliyyət” və digər mətbu orqanlarında Bakı-Tbilisi-Qars Layihəsinin açılışını tarixi hadisə kimi dəyərləndirirlər.

Almaniyanın bir sıra xəbər portallarında yer alan bəzi məqalələrdə də Bakı-Tbilisi-Qars Dəmir Yolu Xəttinin açılışından söz açılır. “Lok-report.de”, “Presse-text.de”, “Walstreet-online.de” və “Presseportal.de” portalları yazır ki, yeni dəmir yolu xəttinin istifadəyə verilməsi ilə Avropa və Asiya arasında yük daşınmaları üçün alternativ marşrutun əsası qoyuldu. Veb-portallarında verilmiş məlumatlarda Bakı-Tbilisi-Qars Dəmir Yolu Xəttinin Avropa ilə Asiya arasında körpü rolunu oynayacağı vurğulanır. Bu dəmir yolu xətti ilə Uzaq Şərqlə Avropa arasında yükdaşımalar üçün tələb olunan vaxtın 14-18 günə qədər qısalacağı bildirilir.

Avropa ilə Asiyanı birləşdirən və dünyanın 100 böyük layihəsi siyahısına daxil olan Bakı-Tbilisi-Qars Dəmir Yolu Xəttinin tarixi əhəmiyyəti ilə bağlı təqdim olunan məqalələrdə Bakı-Tbilisi-Qars Dəmir Yolu Xəttini gerçəkləşdirən amillər, onun tikintisinə böyük məbləğdə maliyyə vəsaitinin sərf olunması, yolun üstünlükləri, yaratdığı yeni perspektivlər və s. məqamlardan bəhs olunub. Avrasiya məkanı üçün yeni yüksəliş layihəsi olan Bakı-Tbilisi-Qars Dəmir Yolu Xətti Qədim İpək Yolunun polad magistrallar üzərində bərpasıdır. Məqalələrdə Bakı-Tbilisi-Qars Dəmir Yolunun Azərbaycan və region üçün geosiyasi və geoiqtisadi əhəmiyyəti və gələcək perspektivləri haqqında geniş məlumat verilir.

İtaliyanın “Notizie Geopolitiche” analitik portalında dərc olunan “Azərbaycan: Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılış mərasimi keçirilib” sərlövhəli məqalə Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılışına həsr olunub. Məqalədə Bakı-Tbilisi-Qars Dəmir Yolunun tarixi, müxtəlif illərdə tikintisi, sərnişin və yük daşıma qabiliyyəti, eləcə də, Azərbaycan və region üçün geosiyasi və geoiqtisadi əhəmiyyəti və gələcək perspektivləri haqqında geniş məlumat verilir.

Müəllif yeni dəmir yolunun Azərbaycan, Türkiyə və Gürcüstanı qlobal əhəmiyyətli nəqliyyat qovşaqlarına çevirəcəyini, həmçinin, Avropa və Asiya arasında birbaşa əlaqə yaratmaqla, Mərkəzi Asiya ölkələri - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, eləcə də, Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdıracağını diqqətə çatdırıb. Həmçinin, Bakı-Tbilisi-Qars Dəmir Yolu Azərbaycanın Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsini təmin etməklə, hər iki ölkə arasında münasibətləri daha da gücləndirəcəyini vurğulayıb.

Bakı-Tbilisi-Qars Dəmir Yolu tikintisinin dünyanın 100 xüsusi strateji əhəmiyyətli layihələrindən biri olduğunu xatırladan müəllif onun Azərbaycanın müstəqilliyinin daha da möhkəmlənməsi və iqtisadi rolunun artmasında vacib strateji amil olduğunu qeyd edib.

Yazıda bu tarixi hadisə ilə bağlı italyan ekspertlərin də fikirlərinə yer verilib. İtaliya-Azərbaycan Ticarət Palatasının sədri Manuela Traldi Bakı-Tbilisi-Qars Dəmir Yolunu Azərbaycanın qitələrarası logistik qovşaq kimi təbii rolunu gücləndirən və xarici sərmayə və müştərək müəssisələrin yaradılması baxımından ölkənin cəlbediciliyini artıran əhəmiyyətli infrastruktur kimi qiymətləndirib.

Məqalədə Bakı-Tbilisi-Qars Dəmir Yolunun rəsmi açılışının təkcə cəlb olunan ölkələr deyil, bütün beynəlxalq ictimaiyyət üçün yaxşı xəbər olduğu bildirilərək, bu dəmir yolunun Türkiyə, Azərbaycan və Gürcüstanın həm öz aralarında, həm də Avropa və Aralıq dənizi ölkələri ilə sıx münasibət qurmalarına imkan yaradacağı vurğulanıb.

İtaliyalı ekspertlərin fikrincə isə, Bakı-Tbilisi-Qars Dəmir Yolunun açılış Azərbaycan üçün böyük uğur və İtaliya üçün isə yeni imkandır.

Müəllif yeni dəmir yolunun regionun sabitliyi və iqtisadi inkişafına öz töhfəsini verməklə yanaşı, Azərbaycan, Türkiyə və Gürcüstanı qlobal əhəmiyyətli nəqliyyat qovşaqlarına çevirəcək, həmçinin, Avropa və Asiya arasında birbaşa əlaqə yaratmaqla, Mərkəzi Asiya ölkələri - Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan və Tacikistanın, eləcə də, Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdıracağını yazıda diqqətə çatdırıb. Həmçinin, Bakı-Tbilisi-Qars Dəmir Yolu Azərbaycanın Türkiyə ilə birbaşa dəmir yolu əlaqəsini təmin etməklə, hər iki ölkə arasında münasibətləri daha da gücləndirəcəyini vurğulayıb.

Müəllif, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Bakı-Tbilisi-Qars Dəmir Yolunun əhəmiyyəti haqqında fikirlərinə istinad edərək, Bakı-Tbilisi-Qars Dəhlizinin Avrasiya nəqliyyat xəritəsinin vacib tərkib hissəsi və Avropanı Asiya ilə birləşdirən ən qısa və etibarlı yol olduğunu vurğulayıb: “Bu dəhliz Azərbaycanın nəqliyyat sektoruna böyük əhəmiyyət verdiyini sübut edir, buraya Ələt Beynəlxalq Dəniz Ticarət Limanı da daxildir. Bu layihə, həmçinin, üç ölkənin - Azərbaycan, Türkiyə və Gürcüstanın strateji baxışını əks etdirir. Ən əhəmiyyətlisi odur ki, Bakı-Tbilisi-Qars Dəmir Yolunun işə düşməsi region xalqlarını bir-birilərinə yaxınlaşdıracaq və iqtisadi inkişafı təmin edərək, regionun sabitliyinə əhəmiyyətli töhfə verəcəkdir. Belə bir nəticə Azərbaycan, Türkiyə və Gürcüstanın dostluq və qardaşlığı sayəsində əldə edilib”.

***Nəzakət ƏLƏDDİNQIZI***

# BDU-da "525-ci qəzet"in yubileyi qeyd edildi





Dünən Bakı Dövlət Universitetində "525-ci qəzet"in 25 illik yubileyinə həsr olunmuş tədbir və yubiley münasibətilə nəşr olunmuş "525"-zamanın sınağında" kitabının təqdimat mərasimi keçirilib. BDU-dan SİA-ya verilən məlumata görə, tədbiri giriş sözü ilə açan rektor, akademik Abel Məhərrəmov "525-ci qəzet"in Azərbaycanın müstəqilliyi ilə yaşıd olduğunu bildirib. O qeyd edib ki, yarandığı gündən etibarən bu qəzeti fərqləndirən əsas cəhət onun demokratik xarakteri olub. Ümummilli lider Heydər Əliyevin demokratik, müstəqil mətbuat ideyalarını ölkə Prezidenti cənab İlham Əliyevin böyük istək və qayğı ilə inkişaf etdirdiyini qeyd edən rektor, bu gün ölkəmizdə dünya standartlarına uyğun mükəmməl bir KİV sisteminin yarandığını, "525-ci qəzet"in bu sistemdə ləyaqətli yer tutduğunu bildirib. Akademik Abel Məhərrəmovun sözlərindən o da məlum olub ki, qəzetin təsisçiləri və onu bugünkü səviyyəyə çatdıran insanlar Bakı Dövlət Universiteti Jurnalistika fakültəsinin məzunlarıdır.

Qəzetin baş redaktoru Rəşad Məcid və yaradıcı kollektiv bütün fəaliyyətləri boyu Ulu Öndər Heydər Əliyevin demokratik mətbuat ideyalarını rəhbər tutaraq Azərbaycan və azərbaycançılığa xidmət edib, müstəqilliyimizin qorunmasına və inkişafına bacardıqları qədər xidmət göstəriblər. Akademik Abel Məhərrəmov "525-ci qəzet"in yarandığı ilk günlərdən günümüzədək həmişə Bakı Dövlət Universitetinin tədris, elmi, ictimai tədbirlərini diqqət mərkəzində saxladığını bildirib və bu qəzeti "ümummilli qəzet" kimi qiymətləndirib. Rektor Jurnalistika fakültəsinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri, professor Cahangir Məmmədlinin müəllifi olduğu "525"-zamanın sınağında" adlı kitabın əhəmiyyətini qeyd edərək əsərdə qəzetin yaranma tarixi, onun fəaliyyətinin əsas istiqamətləri, mövzu dairəsi, mədəni həyatımızın, ədəbiyyat və incəsənətimizin, elmi düşüncəmizin işıqlandırılmasında göstərdiyi yaradıcılıq xidmətlərinin əks edildiyi xüsusilə qeyd edib.

Jurnalistika fakültəsinin Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi kafedrasının müdiri professor Cahangir Məmmədli çıxış edərək müəllifi olduğu "525"-zamanın sınağında" adlı kitabın yaranma ideyasından, qəzetin Azərbaycan mətbuat tarixində oynadığı tarixi roldan bəhs edib. KİVDF-nin icraçı direktoru Vüqar Səfərli 25 yaşlı "525-ci qəzet"in tarixi missiyasından, mətbuatın inkişafındakı xidmətlərindən danışıb.

Atatürk Mərkəzinin müdiri, akademik Nizami Cəfərov, Prezident Administrasiyasının İctimai-siyasi şöbəsinin baş məsləhətçisi Vüqar Səlimov, Türkiyə səfirliyinin mədəniyyət müşaviri İrfan Ciftçi, BDU-nun professoru Şirməmməd Hüseynov qəzet haqqında fikirlərini bölüşüb, təbriklərini çatdırıblar. Sonra Təhsil Nazirliyinin şöbə müdiri Casarət Valehov, Mədəniyyət və Turizm Nazirliyinin şöbə müdiri Vüqar Şıxməmmədov, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin şöbə müdiri Elman Babayev, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin şöbə müdiri Gündüz İsmayılov təmsil etdikləri qurumların rəhbərlərinin təbrik məktublarını diqqətə çatdırıblar. Sonda "525-ci qəzet"in baş redaktoru Rəşad Məcid tədbirin təşkilatçılarına və iştirakçılara minnətdarlıq edib, qəzet haqqında deyilən xoş sözlərə görə təşəkkürünü bildirib.

# Siyavuş Novruzov: "Bugünkü Müsavatla o biri Müsavat tamamilə başqadır"



"Azərbaycan müstəqilliyinin qorunması, saxlanılması, inkişaf etdirilməsi Ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Biz haqqı olan insanların əməyini qiymətləndirməliyik. Azərbaycan Xalq Cümhuriyyətinin məsələsi həmişə diqqət mərkəzində olub". SİA-nın məlumatına görə, bunu Milli Məclisin dünən keçirilən plenar iclasında parlamentin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, hakim Yeni Azərbaycan Partiyası İcra katibinin müavini Siyavuş Novruzov deyib.

O bildirib ki, bəzi siyasi partiyalar buna maneçilik törətmək üçün özlərini ortaya atırlar: "Bu Azərbaycan xalqının tarixidir. Bu Azərbaycana məxsusdur. Kimsə partiyasının adını keçmişdə fəaliyyət göstərmiş bir partiyanın adı ilə adlandırsa da, bu, o partiya deyil. Müsavat Partiyası Azərbaycan Xalq Cümhuriyyəti dövründə olan, Azərbaycan xalqının tarixində olan partiyadır. Bugünkü Müsavatla, o biri Müsavat tamamilə başqa-başqa şeylərdir. O vaxtı bunlara bu partiyanı etibarnamə ilə veriblər ki, onu idarə etsinlər? Xeyr. AXC dövründəki Müsavat Partiyası Azərbaycan xalqının partiyasıdır və qarışıqlıq salıb, ümumi işə xələl gətirməyin tərəfdarı deyiləm".

# İqtisadiyyat naziri Biləsuvarda vətəndaşları qəbul edib



Azərbaycan Respublikası Prezidentinin tapşırığına uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri tərəfindən bölgələrdə vətəndaşların qəbulu davam etdirilir. Noyabrın 17-də İqtisadiyyat naziri Şahin Mustafayev Biləsuvarda Salyan, Neftçala, Biləsuvar və Cəbrayıl rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda digər şəhər və rayonlardan olan və qəbul zamanı birbaşa müraciət edən vətəndaşların müraciətlərinə də baxılıb.

İqtisadiyyat Nazirliyinin aidiyyəti struktur bölmələrinin rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların müraciətləri nazir Şahin Mustafayev tərəfindən diqqətlə dinlənilib, müraciət edilən məsələlərlə bağlı ətraflı izahat və məlumat verilib, əksər məsələlər yerindəcə həll edilib. Müraciətlərdə göstərilən digər məsələlərin qəbuldan dərhal sonra araşdırılması və həlli üçün Nazirliyin aidiyyəti məsul əməkdaşlarına tapşırıqlar verilib. İqtisadiyyat Nazirliyinin səlahiyyətlərinə aid olmayan məsələlərlə bağlı müraciətlərin isə icrası nəzarətdə saxlanılmaqla aidiyyəti strukturlara çatdırılacağı bildirilib. Qəbula gələn vətəndaşlar sahibkarlıq fəaliyyəti, güzəştli kreditlərin alınması, region üçün ənənəvi sahələrin inkişafı, sənaye və kənd təsərrüfatı müəssisələrinin yaradılması, əkin sahələrinin suvarılmasına və sahibkarlıq subyektinə qaz təchizatı məsələsində köməkliyin göstərilməsi, investisiya təşviqi sənədinin verilməsi, sosial və s. məsələlərlə bağlı müraciət ediblər. Eyni zamanda, qəbula gələn sahibkarların təklifləri müzakirə edilib, onların heyvandarlıq, quşçuluq, arıçılıq, əkinçilik, meyvəçilik, dəri emalı sahəsinin genişləndirilməsi, pambıqçılıq, xurma istehsalı, istixana təsərrüfatının yaradılması, soyuducu anbarın tikilməsi və s. sahələr üzrə investisiya layihələrinin güzəştli kreditlər hesabına maliyyələşdirilməsi barədə müvafiq göstərişlər verilib. Ümumilikdə qəbulda 50-ə yaxın vətəndaş müraciət edib. Qəbula gələnlər göstərilən hərtərəfli diqqət və qayğıya, yaradılan şəraitə görə dövlət başçısına minnətdarlıq ediblər.

## Müdafiə naziri komandanlarla müşavirə keçirib



Noyabrın 17-də Mərkəzi Komanda Məntəqəsində müdafiə naziri, general-polkovnik Zakir Həsənovun rəhbərliyi ilə Silahlı Qüvvələr miqyasında keçirilən komanda-qərargah hərb oyunlarına cəlb olunan rəhbər heyətlə xidməti müşavirə keçirilib. SİA-nın Müdafiə Nazirliyinin mətbuat xidmətinə istinadən verdiyi xəbərə görə, Müdafiə Nazirliyinin Baş idarə, idarə rəisləri, Silahlı Qüvvələrin qoşun növləri komandanları, birlik və birləşmə komandirlərinin iştirakı ilə keçirilən müşavirədə qoşunlara təlimlə əlaqədar əməliyyatların planlaşdırılması üzrə göstərişlər və döyüş sərəncamları çatdırılıb. Müdafiə naziri təlimlərdə iştirak edən rəhbər heyətin məruzələrini dinlədikdən sonra müvafiq tapşırıq və göstərişlərini verib.



# Milli Məclisin plenar iclasında 30 məsələyə baxılıb



Noyabrın 17-də Milli Məclisin növbəti plenar iclası keçirilib. AZƏRTAC xəbər verir ki, iclası açan Milli Məclisin sədri Oqtay Əsədov gündəliyi təqdim edib. Gündəliyin təsdiqindən sonra cari məsələlər müzakirə olunub. Daha sonra gündəlikdəki sənədlərin müzakirəsinə başlanılıb. Əvvəlcə iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə ilk 10 məsələ - Vergi və İnzibati Xətalar məcəllələrində, "Sığorta fəaliyyəti haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Poçt haqqında", "Kommersiya sirri haqqında", "İnvestisiya fondları haqqında", "Banklar haqqında", "Bank olmayan kredit təşkilatları haqqında" qanunlarda, "Bələdiyyələrin vergi xidməti orqanı haqqında Əsasnamə"də təklif edilən dəyişikliklər barədə məlumat verib. Qeyd edilib ki, qanun layihələri Vergi Məcəlləsinə dəyişikliklər edilməsi barədə 2016-cı il 16 dekabr tarixli 454-VQD nömrəli Qanunun tətbiqi ilə əlaqədar hazırlanıb. Sənədlərə təklif olunan dəyişikliklər texniki xarakter daşıyır.

Dəyişikliklərə əsasən, beynəlxalq müqavilələrə uyğun olaraq, xarici dövlətlərin hüquqi və fiziki şəxslərinin Azərbaycanda həyata keçirdikləri maliyyə əməliyyatları barədə məlumatlar Vergi Məcəlləsinin 76-1-ci maddəsinin tələbləri əsasında həmin xarici dövlətlərin səlahiyyətli orqanlarına təqdim edilməlidir. Bildirilib ki, dəyişikliklərə müvafiq olaraq İnzibati Xətalar Məcəlləsinə "Maliyyə institutları tərəfindən məlumatların verilməsi" adlı maddə əlavə edilir. Sənədlər ayrı-ayrılıqda səsə qoyularaq qəbul olunub.

Sonra Ziyad Səmədzadə "Avtomobil yolları haqqında" Qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsi barədə danışaraq bildirib ki, sənəd ödənişli yolların yaradılması ilə bağlı zəruri məsələləri tənzimləmək məqsədilə hazırlanıb. Bu yolların yaradılması ilə bağlı digər hüquqi və təşkilati məsələlər (avtomagistraldan ödənişli yol kimi istifadə qaydası, hər bir nəqliyyat vasitəsinin gedişi üçün ödənişin məbləği, avtomagistraldan ödənişli yol kimi istifadə edilməsi barədə məlumatın forması, avtomagistraldan ödənişli əsaslarla istifadənin dayandırılması və xitam verilməsi qaydası və s. halları) qanun qüvvəyə mindikdən sonra müvafiq icra hakimiyyəti orqanı tərəfindən təsdiq ediləcək.

Sənəd səsvermə yolu ilə təsdiqlənib.

Ziyad Səmədzadə sonra "Reklam haqqında" Qanuna dəyişikliklər edilməsi barədə qanun layihəsindən danışıb. Qeyd olunub ki, sənəd qanunvericiliyin təkmilləşdirilməsi, açıq məkanda reklama icazə alınması üçün prosedurların dəqiqləşdirilməsi, reklam yayımına görə haqqın ödənilmə qaydaları və məbləği ilə bağlı məsələlərin tənzimlənməsi məqsədilə hazırlanıb. Təklif olunan qanun layihəsinə əsasən ticarət, xidmət və digər obyektlərin giriş hissəsində, divarında yerləşdirilən və həmin obyektlərin adını, mənsubiyyətini, fəaliyyət növünü, ünvanını və iş rejimini istehlakçıya çatdıran, sayı 1-dən, ölçüsü 2 kvadratmetrdən artıq olmayan lövhələr reklam daşıyıcıları və reklam hesab olunmayacaq. Bununla da hansı məlumat lövhələrinin reklam olub-olmaması ilə bağlı praktikada geniş rast gələn qeyri-müəyyənliklər aradan qaldırılacaq. Sənəd səsə qoyularaq qəbul edilib.

Sonra hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli Cinayət, Cinayət-Prosessual və İnzibati məcəllələrdə dəyişikliklər edilməsi haqqında qanun layihələri barədə ətraflı məlumat verib. Qeyd olunub ki, Azərbaycan Prezidentinin 2016-cı il 28 dekabr tarixli 1182 nömrəli Fərmanı ilə "Dövlətə məxsus olan hüquqi şəxslərin daxili və xarici borclanması qaydası" təsdiq edilib. Həmin sənəddə müəyyən olunub ki, dövlətə məxsus olan kommersiya hüquqi şəxsləri, qeyri-kommersiya hüquqi şəxsləri, habelə publik hüquqi şəxslər, törəmə təsərrüfat cəmiyyətləri daxili və xarici borcalmalar zamanı müəyyən prosedurlara riayət etmək şərti ilə Maliyyə Nazirliyinin razılığını almalıdırlar. Bu cür borcalmalar razılıq alınmadan aparıldıqda dövlətə bu və ya digər dərəcədə ziyan vurma riski yaranır. Təklifin əsas mahiyyəti sözügedən Fərmanda qeyd olunan qaydaların pozulmasına görə cinayət və inzibati məsuliyyət müəyyən edən normaların formalaşdırılmasından ibarətdir.

Sonra deputatlar sənədləri təsdiqləyiblər.

Əli Hüseynli gündəlikdəki digər üç məsələ - Mülki Məcəllədə, "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Notariat haqqında" qanunlarda dəyişikliklər edilməsinə dair qanun layihələri barədə məlumat verib. O bildirib ki, bu qanun layihələrində dəyişikliklər daşınmaz əmlaka sərəncam verilməsi sahəsində mexanizmlərin daha da təkmilləşdirilməsi, vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə aparılıb. Belə ki, daşınmaz əmlakın dövlət reyestri "Elektron hökumət" portalına inteqrasiya ediləcək. Daşınmaz əmlakın dövlət reyestrindən çıxarışı real vaxt rejimində əldə etmək mümkün olacaq. Bununla da daşınmaz əmlak üzərində sərəncamların verilməsi daha operativ şəkil alacaq. Qanun layihələrində notarial hərəkətlərin aparılması zamanı bununla əlaqədar xidmətlərin göstərilməsi üçün lazımi məlumatlar və sənədləri elektron sorğular göndərərək elektron informasiya sistemləri vasitəsilə real vaxt rejimində əldə etmək hüququnun müəyyən edilməsi ilə bağlı məsələlər öz həllini tapıb. Hər üç sənəd ayrı-ayrılıqda səsə qoyularaq təsdiq edilib.

Əli Hüseynli İnzibati Xətalar Məcəlləsindəki dəyişikliyi şərh edərkən bildirib ki, "İnzibati xətalar haqqında işlər üzrə icraat zamanı prokuror nəzarəti" maddəsi var. Təklif olunur ki, məcəllənin 534 və 538-ci maddələri də bu kateqoriyaya aid edilsin. Qeyd edilən maddələr üzrə nəzərdə tutulan inzibati xətalar - uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya qanunvericiliyinin tələblərinin pozulması hallarında qərarın qəbul edilməsi prokurorun səlahiyyətlərinə aid edilir.

Sənəd səsə qoyularaq qəbul olunub. Sonra Əli Hüseynli gündəlikdəki növbəti beş məsələ barəsində məlumat verib. Cinayət və İnzibati Xətalar məcəllələrinə, "Narkotik vasitələrin və ya psixotrop maddələrin qanunsuz hazırlanmasında və emalında prekursorlardan istifadə məqsədilə törədilən əməllərlə əlaqədar həmin prekursorların xeyli və külli miqdarının Siyahısı"nın təsdiq edilməsi haqqında, 2005-ci il 28 iyun tarixli 961-IIQ nömrəli Qanunla təsdiq edilmiş "Şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi üçün kifayət edən narkotik vasitələrin və psixotrop maddələrin miqdarına, habelə onların külli miqdarına görə siyahıları"nda dəyişiklik edilməsi haqqında, eləcə də "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" qanunlara dəyişikliklər edilməsi barədə sənədlərdəki dəyişikliklərin mahiyyəti "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomaniyaya qarşı mübarizəyə dair 2013-2018-ci illər üçün Dövlət Proqramı"nın icrası üzrə qanunvericiliyin təkmilləşdirilməsi ilə bağlıdır. Bu sənədlər də ayrı ayrılıqda səsvermə yolu ilə təsdiqlənib. Sonra Əli Hüseynli "Prokurorluq haqqında" Qanuna dəyişikliklər edilməsi barədə layihəni təqdim edib. Bildirilib ki, qanun layihəsinə edilən dəyişiklik Avropa Şurasının "Korrupsiyaya qarşı dövlətlər qrupu"nun (GRECO) təklifi ilə aparılıb. Qanunun 43 və 44-cü maddələrində aparılan dəyişikliyin əsas mahiyyətinə görə söhbət nəzarətdən deyil, məlumatlandırmadan gedir. Dəyişikliklər qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə aparılır.

Sənəd səsə qoyularaq təsdiqlənib. Mülki Məcəlləyə edilən dəyişikliyi şərh edən Əli Hüseynli bildirib ki, qanun layihəsi uyğunlaşdırma xarakteri daşıyır. Belə ki, "Daşınmaz əmlakın dövlət reyestri haqqında" Qanunda "məlumatlandırma icraatının tətbiq edilməsi sifarişli poçt göndərişi və ya bilavasitə həyata keçirilməlidir" ifadəsi qeyd olunur. Bu ifadə eyniliklə Mülki Məcəllədə də öz əksini tapır.

Sənəd səsvermə yolu ilə qəbul edilib. Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişikliklər edilməsi haqqında qanun layihəsini təqdim edib. Bildirilib ki, Məcəllənin 342.1.2 maddəsində nəqliyyat vasitələrini idarə etməkdən diqqəti yayındıra biləcək söhbətdə iştirak etməyə görə 40 manat miqdarında cərimə nəzərdə tutulur. Təcrübə onu göstərir ki, bu maddə tətbiq olunmur və bu səbəbdən həmin maddə və digər 345.2 maddə Məcəllədən çıxarılır. Bu dəyişikliklərdən sonra banı zədələnmiş nəqliyyat vasitələrini təmirə qəbul edərkən müvafiq icra hakimiyyətinin icazəsinin alınmasına da ehtiyac olmayacaq. Qanun layihəsi səsvermə yolu ilə təsdiq edilib.

"Azərbaycan Respublikası vətəndaşının yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddəti ilə əlaqədar bəzi qanunlarda dəyişikliklər edilməsi haqqında" qanun layihəsi barədə məlumat verən Əli Hüseynli bildirib ki, bu sahədə texniki problemlərlə əlaqədar qanunun qüvvəyə minmə tarixi dəyişilir. Təklif olunur ki, yeni nəsil şəxsiyyət vəsiqələrinin tətbiqi müddəti 2019-cu ilə keçirilsin.

Sənəd səsə qoyularaq qəbul edilib. Sonra Əli Hüseynli "Rəşadət" ordeninin təsis edilməsi ilə əlaqədar "Azərbaycan Respublikasının orden və medallarının təsis edilməsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə məlumatı diqqətə çatdırıb. Bildirilib ki, "Rəşadət" ordeni ilə Azərbaycan Silahlı Qüvvələrinin hərbi qulluqçuları, müstəqilliyimizin, ərazi bütövlüyünün və təhlükəsizliyin təmin edilməsində xüsusi xidmətləri olan, əhəmiyyətli və ya strateji ərazinin, yaşayış məntəqəsinin, rayonun və ya şəhərin düşmən işğalından azad olunması ilə nəticələnmiş döyüş əməliyyatları zamanı hərbi hissə və birləşmələrə yüksək peşəkarlıqla rəhbərlik edənlər, Vətənin müdafiəsi zamanı düşmən hücumunun qarşısının alınmasında, işğal edilmiş ərazilərin azad olunmasında, düşmənin canlı qüvvəsinin və döyüş texnikasının məhv edilməsində igidlik və mərdlik nümunəsi göstərənlər, həyat və sağlamlıq üçün real təhlükə şəraitində xidməti borc və hərbi qulluq vəzifəsini yerinə yetirərkən mərd və qətiyyətli hərəkətləri, fövqəladə hallarda və ya ekstremal şəraitdə insanların xilas edilməsində, dövlət sərhədinin mühafizəsinin təmin edilməsində xüsusi xidmətləri olan insanlar təltif ediləcəklər.

Sənəd yekdilliklə təsdiqlənib. Daha sonra Əli Hüseynli "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Qanunda dəyişiklik edilməsi barədə məlumat verib. Düzəlişin mahiyyəti ondan ibarətdir ki, prokurorluq işçilərinin attestasiyası və fəaliyyətinin qiymətləndirilməsi "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" qanunla müəyyən edilmiş qaydada və hallarda həyata keçirilir. Təqdim edilən qanun layihəsi prokurorluq işçilərinə işlədiyi müddətdə nəzəri biliklərinin və peşə hazırlığının bu müddətdə nəzərdə tutulmayan başqa hallarda imtahanların keçirilmə təcrübəsinin tətbiq edilməsinin yolverilməzliyi məqsədilə hazırlanıb.

Sənəd səsvermə ilə qəbul olunub. Bununla da Milli Məclis öz işini başa çatdırıb.

# Suraxanıda YAP-ın 25 illik yubileyi münasibəti ilə tədbir keçirilib



***Dünən Suraxanı rayon İcra Hakimiyyətində Yeni Azərbaycan Partiyasının (YAP) 25 illik yubileyi münasibəti ilə tədbir keçirilib. SİA-nın məlumatına görə, tədbirdə Suraxanı rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov, partiyanın Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə, "SƏS" Media Qrupunun rəhbəri Bəhruz Quliyev və digər rəsmilər iştirak ediblər. Öncə tədbir iştirakçıları Ulu Öndər Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzüb, xatirəsini ehtiramla yad ediblər. İcra Hakimiyyətinin zalında davam edən tədbirdə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.***

"SƏS" Media Qrupunun hazırladığı YAP-ın yaradılması və ölkəmizin inkişafındakı xidmətləri ilə bağlı videoçarx nümayiş olunduqdan sonra Ulu Öndər Heydər Əliyevin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Sonra YAP Suraxanı rayon təşkilatının sədri Vüqar Seyidov məruzə ilə çıxış edib. O, YAP-ın yaradılmasının Azərbaycanın ictimai-siyasi həyatında böyük hadisə olduğunu vurğulayıb. Rayon təşkilatının sədri Ulu Öndər Heydər Əliyevin ölkəmizin müstəqilliyi və inkişafı uğrunda gördüyü işlərdən, dövlət başçımız İlham Əliyevin Onun siyasi kursunu uğurla davam etdirməsindən söz açıb. O, Azərbaycanın bu gün bütün sahələrdə uğurla inkişaf etdiyini bildirib. V.Seyidov YAP-ın 25 illik yubileyi münasibətilə bütün xalqımızı təbrik edib. YAP-ın Təsis Konfransının üzvü, partiya veteranı Sabir Allahverdiyev xatirələrini tədbir iştirakçıları ilə bölüşüb.

YAP-ın Siyasi Şurasının üzvü, "İki sahil" qəzetinin baş redaktoru Vüqar Rəhimzadə partiyanın ölkəmizin ictimai-siyasi həyatındakı xidmətləri haqda ətraflı məlumat verib. O, YAP-ın yaradılmasının və fəaliyyətinin Azərbaycanın müstəqil dövlət kimi inkişafında əvəzolunmaz rolu olduğunu vurğulayıb. V.Rəhimzadə ölkəmizdə YAP-ın yaradılmasından öncəki və Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsindən sonrakı vəziyyət haqda danışıb: "Ümummilli Lider Heydər Əliyev Azərbaycanda siyasi sabitlik yaratdı, atəşkəsin imzalanmasını təmin etdi, iqtisadi inkişafın təməlini qoydu və ölkəmizin müstəqil dövlət kimi dünyada qəbul edilməsinə nail oldu. Bu gün cənab Prezident İlham Əliyev Ulu Öndər Heydər Əliyevin apardığı siyasi kursu uğurla davam etdirir və Azərbaycanın inkişafı üçün böyük işlərə imza atır. Dövlət başçımız İlham Əliyevin sədri olduğu partiyada təmsil olunmaq qürurvericidir".

Daha sonra YAP Suraxanı rayon təşkilatının fəal gənci Azad Abıyev çıxış edərək YAP-ın gənclər siyasəti haqqında məlumat verib.

"SƏS" Media Qrupunun rəhbəri Bəhruz Quliyev isə YAP-ın Milli Dirçəliş Günü ərəfəsində yaradıldığını vurğulayıb: "O dövrdə xalq oyanmışdı, meydan hərəkatı başlamışdı, ancaq lider yox idi. Xalqa lider lazım idi. Xalq Ulu Öndər Heydər Əliyevə müraciət etdi. 91 ziyalının "SƏS" qəzeti vasitəsi ilə Ulu Öndərə etdiyi müraciətə Heydər Əliyev də "SƏS" qəzeti vasitəsilə cavab verərkən tarixi bir sənədə imza atdı. O, cavabında ölkənin düşdüyü vəziyyətdən çıxış yollarını göstərdi. Bu cavab bir konsepsiya oldu. Ulu Öndər Heydər Əliyev və xalq sevgisi birləşdi və müstəqilliyimizin əbədiliyinin təməli qoyuldu. Ulu Öndər həm xalqın lideri, həm də dövlətin başçısı idi. Bu xüsusiyyətlər hazırda cənab Prezident İlham Əliyevdə özünü göstərir. Dövlət başçımız Azərbaycanı regionun lider dövlətinə çevirib. Ölkəmiz bu gün dünyada güclü və qüdrətli dövlət kimi qəbul edilir və söz sahibidir. Bu uğurlarda YAP-ın rolu əvəzsizdir. Bu gün gənclər öz liderinin ətrafında sıx birləşib. Partiyamızın uğurları onun kökündə dövlətçilik və xalqa xidmətin dayanmasından irəli gəlir. Bütün xalqımızı partiyamızın 25 illik yubileyi münasibəti ilə təbrik edirəm. Yaşasın Yeni Azərbaycan Partiyası!".

Sonda Suraxanı rayon İcra Hakimiyyətinin başçısı İlqar Abbasov çıxış edərək YAP-ın yadılmasının Azərbaycanın tarixində çox önəmli hadisə olduğunu, məhz partiyanın təsis olunmasından sonra ölkəmizin ağır vəziyyətlərdən çıxdığını söyləyib.

O, Azərbaycanın inkişafı, dövlət başçısının bu istiqamətdə apardığı uğurlu siyasətdən söz açıb. İ.Abbasov Suraxanı rayonunda görülən işlər haqqında məlumat verib. İcra hakimiyyətinin başçısı YAP-ın 25 illik yubileyi münasibəti ilə xalqımızı təbrik edib.




# Ümummilli Lider Heydər Əliyevin inkişaf strategiyası uğurla davam etdirilir

*Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı "Azəravtoyol" ASC ərazi ilk partiya təşkilatında partiyanın yaradılmasının 25 illik yubileyinə həsr edilmiş tədbir keçirilib*



***Yeni Azərbaycan Partiyası Nəsimi rayon təşkilatı "Azəravtoyol" ASC ərazi ilk partiya təşkilatında partiyanın yaradılmasının 25 illik yubileyinə həsr edilmiş tədbir keçirilib. Tədbir iştirakçıları ilk öncə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək, Onun xatirəsini ehtiramla yad ediblər. Cəmiyyətin akt zalında davam etdirilən tədbiri giriş nitqi ilə "Azəravtoyol" ASC-nin sədri Saleh Məmmədov açaraq, YAP-ın keçdiyi şərəfli tarixi yoldan daşıb: "1993-cü ilin yayında vətəndaş müharibəsi astanasında cəmiyyətimizin bütün ümidləri Ulu Öndər Heydər Əliyevə idi. O vaxt xalqın tələbi ilə hakimiyyətə gələn Ümummilli Lider qısa müddət ərzində vəziyyəti sabitləşdirdi, bu da imkan verdi ki, ölkəmiz inkişaf yoluna qədəm qoysun və o ildən bu günədək Azərbaycan yalnız və yalnız inkişaf yolu ilə gedir".***

Saleh Məmmədov Yeni Azərbaycan Partiyasının qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin inkişaf strategiyasını uğurla davam etdirən Möhtərəm Prezident İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrlə yanaşı, yol infrastrukturunun sistemli və hərtərəfli inkişafına xüsusi diqqət göstərdiyini qeyd edərək, ölkənin regionlarında, eləcə də, paytaxt Bakıda bu sahədə vəziyyətin kökündən dəyişdiyini, dövlətimizin başçısının sərəncamları ilə ayrılan vəsaitlərin yol infrastrukturunun dinamik inkişafına yol açdığı və bu istiqamətdə həyata keçirilən məqsədyönlü və sistemli tədbirlərin nəticəsi olaraq, avtomobil yollarının tikintisinin, yenidən qurulmasının həcminin ildən-ilə artdığını bildirib. Daha sonra tədbirdə YAP Nəsimi rayon təşkilatı "Azəravtoyol" ASC üzrə ərazi ilk partiya təşkilatının sədri Əvəz Qocayev çıxış edib. İlk partiya təşkilatının sədri son illər ərzində "Azəravtoyol" ASC üzrə ərazi ilk partiya təşkilatı tərəfindən həyata keçirilən işlər barədə geniş məlumat verərək bildirib ki, aparılan səmərəli fəaliyyət nəticəsində gənclərdən ibarət üzvlərinin sayı durmadan artıb. Hazırda "Azəravtoyol" ASC-nin 2825 partiya üzvündən 480 nəfəri YAP Nəsimi rayon təşkilatının qeydiyyatındadır və təşkilatın idarə və müəssisələrində 25 dayaq məntəqəsi yaradılıb.

Tədbir zamanı digər çıxışlar da dinlənildikdən sonra partiya işinin təşkilində səmərli xidmətlərinə görə, cəmiyyətin bir qrup əməkdaşı təltif edildi. Bundan başqa, partiya sıralarına yeni qəbul olunmuş üzvlərə vəsiqələrin təqdim olunub.

Tədbirdə çıxış edən Milli Məclisin deputatı, YAP Nəsimi rayon təşkilatının sədri Məlahət İbrahimqızı "Azəravtoyol" ASC üzrə ərazi ilk partiya təşkilatının hesabat dövründəki fəaliyyətini yüksək qiymətləndirərək təşkilat üzvlərinə bundan sonrakı fəaliyyətlərində uğurlar arzu edib.

**NƏZAKƏT**

# YAP-ın 25 illik yubileyinə həsr edilmiş mini futbol turnirinin açılış mərasimi olub



Dünən Şağan Olimpiya İdman Kompleksində Gənclər və İdman Nazirliyinin təşkilatçılığı ilə Yeni Azərbaycan Partiyasının (YAP) 25 illik yubileyinə və "Qarabağ" futbol klubunun Avropa arenasında əldə etdiyi nailiyyətlərə dəstək olaraq media və incəsənət nümayəndələri arasında mini-futbol turnirininin açılış məraismi keçirilib. SİA-nın məlumatına görə, mərasimdə Gənclər və İdman Nazirliyinin (GİN) sektor müdiri, turnirin təşkilat komitəsinin sədri Aydın Məmmədov, GİN-nin futbol sektorunun müdiri Fikrət Hüseynov, SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev, Xəzər rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Əliyev, Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının (ADBTİA) və AFFA-nın nümayəndəsi, turnirin baş hakimi Anar Salmanov iştirak ediblər. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra GİN-nin futbol sektorunun müdiri Fikrət Hüseynov YAP-ın ölkəmiz üçün önəmindən və "Qarabağ" klubunun uğurlarından danışıb.

Daha sonra SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev çıxış edərək Yeni Azərbaycan Partiyasının (YAP) yaranmasının ölkəmiz üçün həyati əhəmiyyətindən söz açıb. O, Azərbaycanın ictimai-siyasi həyatında aparıcı rol oynayan YAP-ın keçdiyi 25 illik şərəfli yoldan danışıb. "SƏS" Media Qrupunun rəhbəri YAP-ın Qafqazın ən böyük partiyası olduğunu, bu gün Azərbaycan xalqının partiyaya böyük etimad göstərdiyini vurğulayıb: "Gənclərimiz Yeni Azərbaycan Pariyasının yaradıcısı olan Ulu Öndər Heydər Əliyevin ideyalarını və siyasi kursunu uğurla davam etdirən dövlət başçımız İlham Əliyevin ətrafında sıx birləşib. Onlar hər an Ali Baş Komandanın əmri ilə işğalda olan torpaqlarımızı azad etməyə hazırdırlar".

O, "Qarabağ" klubunun Çempionlar Liqasında göstərdidiyi tarixi nailiyyətlərdən və ölkəmizdə idmanın inkişafından danışıb. Media Qrupun rəhbəri "Qarabağ" klubunun Avroliqada uğurlu çıxışının Azərbaycanda komanda idman növlərinin də inkişaf etdiyinin göstəricisi olduğunu vurğulayıb. B.Quliyev yarış iştirakçılarına uğurlar arzulayıb.

Daha sonra YAP-a həsr olunmuş videoçarx nümayiş etdirilib. Tədbirdə qeyd olunub ki, turnir idmanın ölkəmizdə daha da kütləviləşməsi, sağlam həyat tərzinin təbliği, gənclərin asudə vaxtının səmərəli təşkili baxımından böyük əhəmiyyət kəsb edir. Sonra tanınmış incəsənət ustalarının ifasında konsert proqramı nümayiş olunub.

Qeyd edək ki, turnirdə 8 komanda birincilik uğrunda mübarizə aparacaq. Yarışda media, mədəniyyət nümayəndələri və ADBTİA-nın tələbələrindən ibarət komandalar çıxış edəcəklər. Turnirin qaliblərinə medal, kubok, diplom və qiymətli hədiyyələr təqdim olunacaq. Yarışın final oyunu noyabrın 18-da keçiriləcək.

# Pakistanın Sind əyalətinin iş adamları Azərbaycanla əməkdaşlığa dəvət olunublar



Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə bu ölkənin Sind əyalətinə səfəri zamanı Kəraçi Sənaye və Ticarət Palatasının sədri və üzvləri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, səfir Azərbaycanla Pakistan arasında iqtisadi və ticari əlaqələrin genişləndirilməsi üçün böyük potensialın olduğunu, Pakistanın da böyük ölkə kimi geniş bazara və imkanlara malik olduğunu bildirib.

Noyabrın 9-12-də Kəraçi şəhərində keçirilən iqtisadi-ticari sərgidə Azərbaycan iş adamlarının da iştirak etdiyini bildirən diplomat, səfər zaman əməkdaşlığın genişləndirilməsi üçün qarşılıqlı imkanların araşdırıldığını qeyd edib. Səfir Azərbaycanda həyata keçirilən iqtisadi və ticari layihələr, ölkəmizdən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin imkanları, xarici investorlar üçün yaradılan münbit şərait, yaradılan sənaye, texnologiya parkları və orada iş adamlarına təklif olunan güzəştlər, ölkəmizin əldə etdiyi nailiyyətlər haqqında məlumat verib.

Əli Əlizadə Pakistanın Sind əyalətinin iş adamlarını Azərbaycanın iqtisadi potensialı ilə tanış olmağa və sərmayə yatırmağa dəvət edib. Sind əyalətinə səfər zamanı səfir, həmçinin Pakistanın sabiq Prezidenti Asif Əli Zərdari və Pakistan Qəzetlər Cəmiyyətinin prezidenti, "Jang Qəzetlər Qrupu"nun icraçı direktoru Sarmad Əli ilə görüşlər keçirib.

# Bəhruz Quliyev: "Azərbaycan artıq beynəlxalq tədbirlərin mərkəzi statusunu daşıyır"



"Bildiyimiz kimi, Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) velosiped idmanının "BMX Racing" növü üzrə dünya çempionatının 2018-ci il 5-9 iyun tarixində Bakı şəhərində keçirilməsi ilə bağlı qərar qəbul edilib. Bu isə növbəti dəfə sübut edir ki, paytaxt Bakı, bütövlükdə isə müstəqil Azərbaycan Respublikası beynəlxalq tədbirlərin mərkəzi statusunu daşıyır. Belə ki, mövcud qərar, eyni zamanda ölkə rəhbərliyi tərəfindən aparılan uğurlu idman siyasətinin bariz göstəricisidir". SİA-nın məlumatına görə, bu fikirləri trend-ə ekspert Bəhruz Quliyev UCI-nin qərarını şərh edərkən deyib.

Onun sözlərinə görə, belə bir mötəbər yarışın ölkəmizdə keçirilməsi öz əhəmiyyəti ilə ona görə seçilir ki, yarışların keçiriləcəyi məkan - müstəqil Azərbaycan Respublikası öz sabitliyi, inkişafı və tərəqqisi ilə daim dünyanın diqqət mərkəzindədir: "Məhz ölkəmizin son illər ərzində artan iqtisadi-siyasi potensialı nəticəsində çoxsaylı beynəlxalq səviyyəli tədbirlər, eləcə də digər bir çox idman növləri üzrə dünya və Avropa çempionatları keçirilib. Bu baxımdan, "BMX Racing" növü üzrə dünya çempionatının da Bakı şəhərində keçirilməsi barədə verilmiş qərar Azərbaycanın istər dünyanın idman aləmində, istərsə də siyasi-iqtisadi sferalarda yerinin daha da möhkəmlənməsinə kifayət qədər stimul verir. Əlbəttə, bu kimi uğurları əldə etməyin təməlində Prezident İlham Əliyevin yürütdüyü uğurlu daxili və xarici siyasət faktoru dayanır".

Ekspert, istər UCI-nin, istərsə də başqa beynəlxalq idman federasiya və ittifaqlarının davamlı olaraq ölkəmizdə böyük turnirlərin, dünya və Avropa çempionatlarının keçirilməsi üçün qərarlar qəbul etmələri ilə bağlı vurğulayıb ki, ölkəmiz yalnız idman yarışlarını qəbul etmək üçün məkan deyil, digər sahələri əhatə edən və bütün resurslara, infrastrukturlara malik olan ölkə kimi də tanınmaqdadır: "Regionda və MDB məkanında olmaqla yanaşı, dünya səviyyəsində Azərbaycan liderlik yerini tutub və UCI-nin sözügedən qərarı da buna bariz sübutdur. Çünki bu yarışın keçirilməsi nüfuzlu Avropa ölkələrinin paytaxtlarında - Parisdə, Berlində, Madriddə, Praqada, Varşavada, Moskvada yaxud digər paytaxtlarda da keçirilə bilərdi. Lakin Bakı bu paytaxtların hər birini geridə qoydu. Çünki Azərbaycanda mövcud olan siyasi sabitlik, davamlı inkişaf və s. faktorlar ölkəmizin qüdrətinin göstəricisidir. O cümlədən, belə bir mötəbər tədbirlər ölkəmizdə turizm potensialının inkişafına öz töhfələrini verməkdədir. Ümumiyyətlə, keçirilən hər bir tədbir sözügedən amili daha da isbatlamış olur. Söz yox ki, bütün bunlar bizlər üçün, hər bir azərbaycanlı üçün sonsuz qürur və fərəh hissi doğurur və biz inanırıq ki, məhz ölkə başçımız, Prezident İlham Əliyev cənablarının müəyyən edərək həyata keçirdiyi mütərəqqi siyasət tandemi əldə etdiyimiz və edəcəyimiz uğurların davamlı xarakter alacağına kifayət qədər zəmin yaradır"

***Rövşən NURƏDDİNOĞLU***

# Ermənistan ŞOKDA: Gənclər orduda xidmət etmək istəmirlər!

Ermənistan gəncləri orduda xidmət etmək istəmirlər. İrəvanda bununla bağlı etirazlar artıq on gündür davam edir. Gənclər birmənalı şəkildə orduda xidmətdən möhlət hüququnun məhdudlaşdırılmasının əleyhinədirlər. Tələblərinə əhəmiyyət verilmədiyini görən tələbələr dərslərdən imtina edir, yürüşlər təşkil edir, yolları bağlayır, aclıq aksiyası keçirirlər.

AZƏRTAC xəbər verir ki, "express.armenian" qəzeti gənclərin hərbi xidmətdən yayınma səbəblərini araşdırıb. Bu barədə dərc olunan məqalədə bildirilir ki, gəclərin aksiyası sadəcə bəhanədir. Onlar təhsillərini davam etdirmək yox, hərbi xidmətə getməmək uğrunda mübarizə aparırlar. Bunu heç kim dilə gətirmək istəmir. Çünki reallığı etiraf etməkdən qorxurlar. Bəs səbəb nədir? Qəzet yazır ki, gənclər hərbi xidmət keçmək istəməməkdə haqlıdırlar. Çünki hökumət onların təhlükəsizliyinə zəmanət vermir. Bütün hərbi hissələrdə geyim, qida, istilik, təmizlik problemləri var. Övladları hərbi xidməti başa vuranadək valideynlər müflis olurlar. Əsgərlər tez-tez təhqir edilirlər, incidilirlər. Bu da sui-qəsd hallarının sayını artırır. Ona görə də gənclər həyatlarını boş yerə təhlükəyə atmaq istəmirlər. Əksər valideynlər övladlarını yetkinlik yaşına çatmamış ölkədən qaçırırlar. Nəticədə Ermənistanın hərbi hissələrində gənclərin sayı azalır. İşğalçı ölkənin hərbi sahəsi indi muzdla xidmət edən 45-55 yaşlıların ümidinə qalıb. Onlar isə 18-20 yaşlı gənclərlə kobud rəftar edirlər. Bunun isə çox vaxt mənfi nəticələri olur.

Noyabrın 14-də Gümrüdəki 102 saylı hərbi hissədən iki hərbçi itkin düşüb. Onların zabitləri tərəfindən incidildiyi bildirilir. İki gündür axtarışlara baxmayaraq, hərbçilərdən xəbər yoxdur. Bu ilin aprelində də 102 saylı hərbi hissədən hərbçilər itkin düşüb. Bir hərbi qulluqçu isə naməlum səbəbdən həyatını itirib. Oxşar hallar Ermənistanda çoxalıb. Rəsmi açıqlamaya görə, 2017-ci ilin yanvar-oktyabr aylarında Ermənistan silahlı qüvvələrində müxtəlif səbəblərdən 54 nəfər ölüb, 88 nəfər isə yaralanıb. Lakin müstəqil mənbələr bu rəqəmlərin iki-üç dəfə çox olduğunu bildirirlər. Bütün bunları bilən tələbələr, gənclər hərbi xidmətdən, xüsusilə Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsində xidmətdən imtina edirlər.

# YAP yeni dövrün qlobal çağırışlarına uyğun sosial-iqtisadi inkişaf hədəflərinin müəyyənləşdirilməsində ideoloji mayak rolunu oynayır

## Azərbaycan Respublikasının iqtisadiyyat naziri, YAP Siyasi Şurasının üzvü Şahin Mustafayevin yap.org.az-a müsahibəsi

***- Şahin müəllim, noyabrın 21-də Yeni Azərbaycan Partiyasının yaranmasının 25 ili tamam olur. Müasir müstəqil Azərbaycanın milli tərəqqisində və bütün sahələrdə çoxsaylı uğurların əldə etməsində Ulu öndər Heydər Əliyevin yaradıcısı olduğu Yeni Azərbaycan Partiyasının rolu nədən ibarətdir?***

- Bu gün Azərbaycanda ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın elə bir sahəsi yoxdur ki, həmin sahənin inkişafı Ulu Öndərin adı ilə bağlı olmasın. Məhz Heydər Əliyevin müəllifi olduğu inkişaf strategiyası uzun illər ərzində dövlət quruculuğunun bütün istiqamətləri üzrə inkişafın başlıca dayaqlarını yaratmışdır.

Ötən əsrin son onilliyində Azərbaycan müstəqilliyini yenidən bərpa etməsinə baxmayaraq, müstəqilliyin ilk illərində ölkədə yaranmış siyasi böhran, Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan ərazisinin 20 faizinin işğalı və 1 milyondan artıq soydaşımızın doğma yurd-yuvasından didərgin düşməsi siyasi, sosial-iqtisadi böhranı daha da dərinləşdirmiş və beləliklə ölkə iqtisadiyyatı deqradasiyaya yuvarlanmışdı. Yerli və ittifaq miqyasında olan müəssisələr arasında mövcud əlaqələrin qırılması, ölkənin iqtisadi, siyasi, informasiya blokadasına alınması sosial-iqtisadi tənəzzülü daha da dərinləşdirmiş, bununla da 1990-cı illərin əvvəllərində ÜDM-in, sənaye istehsalının, xarici ticarət dövriyyəsinin həcmi ciddi şəkildə azalmış, inflyasiya idarəolunmaz səviyyəyə çatmışdı. İstehsal sahələrinin sıradan çıxması nəticəsində işsizlik səviyyəsi artmış, əhalinin pul gəlirləri azalmışdı. Belə bir şəraitdə dahi şəxsiyyət, bütün həyatını xalqına və Azərbaycanın müstəqil milli dövlət quruculuğuna həsr etmiş Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı xalqımızın itirilmiş inamını özünə qaytardı, ölkənin yeni inkişaf dövrünün əsasını qoydu. Ulu Öndər Heydər Əliyev böyük xilaskar missiyasını yerinə yetirməklə Azərbaycanı xaos və böhrandan çıxardı, vətəndaş müharibəsinin qarşısını aldı, atəşkəsə nail oldu, Ümummilli Liderin yenidən hakimiyyətə qayıtması ilə bütün sahələrdə olduğu kimi, ölkəmizin iqtisadi həyatında taleyüklü dəyişikliklərin əsası qoyuldu. Azərbaycan dövlətini və ölkə iqtisadiyyatını labüd fəlakətdən, hərc-mərclikdən xilas edən Heydər Əliyev ölkənin iqtisadi yüksəlişi üçün təcili tədbirlər görməyə başladı. Ümummilli Liderin rəhbərliyi ilə qısa müddət ərzində ölkədə bazar iqtisadiyyatının formalaşması məqsədilə qanunvericilik bazası yaradıldı, effektli dövlət proqramları qəbul edildi, institusional islahatlar aparıldı, mülkiyyət münasibətlərində köklü dəyişikliklər edilməsi üçün müvafiq addımlar atıldı.

Ümummilli Liderimizin strateji inkişaf kursunun yeni mərhələdə Prezident cənab İlham Əliyev tərəfindən qətiyyət və uğurla



davam etdirilməsi ölkəmizin milli inkişaf modelini formalaşdırmış, bu modelin yeni qlobal çağırışlara uyğunlaşdırılmaqla tətbiqi bütün sahələrdə əsaslı müsbət dəyişikliklərə, böyük nailiyyətlərə yol açmış, gələcək tərəqqi üçün möhkəm təməl yaratmışdır. Prezident İlham Əliyevin uzaqgörən siyasəti, prinsipiallığı və beynəlxalq aləmdə böyük nüfuzu sayəsində Azərbaycan dünyanın siyasi və iqtisadi məkanında mövqeyini gündən-günə gücləndirir. Düşünülmüş, qarşılıqlı etimada əsaslanan müstəqil siyasət həyata keçirən, regionun siyasi, iqtisadi və mədəni mərkəzi olan Azərbaycan bu gün beynəlxalq aləmdə siyasi sabitliyin, əmin-amanlığın, tərəqqinin, tolerantlığın məkanı kimi tanınır. Səsi dünyanın ən mötəbər tribunalarından gələn müstəqil Azərbaycanın üçrəngli bayrağı irimiqyaslı ictimai-siyasi və mədəni tədbirlərdə, nüfuzlu təşkilatlarda əzəmətlə dalğalanır. Ölkəmiz qlobal əhəmiyyətli beynəlxalq tədbirlərin, humanitar forumların, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqun, eləcə də I Avropa Oyunlarının, "Formula-1" yarışlarının, İslam Həmrəylik Oyunlarının, "Eurovision" mahnı müsabiqəsi kimi mühüm tədbirlərin keçirildiyi məkana çevrilmişdir. Qazanılan böyük uğurların əsasında isə Ümummilli Liderimizin müəyyənləşdirdiyi ölkəmizin hərtərəfli inkişaf strategiyası, Prezident İlham Əliyevin çevik, Azərbaycanı davamlı tərəqqiyə aparan praqmatik siyasəti dayanır. Bu inkişaf kursuna uyğun olaraq, makroiqtisadi sabitliyin qorunması, innovativ əsaslı iqtisadiyyatın inkişafının təmin edilməsi, qeyri-neft sektorunun stimullaşdırılması, yüksək əlavə dəyər yaradan və ixraca yönələn məhsul istehsalının genişləndirilməsi, ən başlıcası isə qazanılan naliyyətlərin ölkə vətəndaşının rifahının daha da yaxşılaşdırılmasına yönəldilməsi Azərbaycan iqtisadiyyatının prioritetlərini təşkil edir.

Heç şübhəsiz ki, bu uğurların qazanılmasında Ulu Öndərin yaradıcısı olduğu, yaranma tarixi Azərbaycanın müstəqillik tarixi ilə demək olar ki, üst-üstə düşən Yeni Azərbaycan Partiyasının (YAP) rolu böyükdür. 1992-ci ilin noyabrında obyektiv tarixi zərurətdən yaranmış YAP ilk gündən ümumazərbaycan partiyasına çevrilmiş, xalqa xidmət missiyasını şərəflə yerinə yetirmişdir. Fəaliyyətində müstəqillik, azərbaycançılıq, müasirlik, inkişaf, sosial rifah, iqtisadi və siyasi islahatları əsas götürən YAP Heydər Əliyevin rəhbərliyi ilə ölkənin sosial-iqtisadi inkişafında böyük uğurlara imza atmışdır. Təsadüfi deyildir ki, dahi siyasət korifeyi xalqımız və dövlətimiz qarşısındakı böyük xidmətləri ilə bağlı YAP-ı dünənin, bu günün və gələcəyin partiyası adlandırmışdır.

Ümummilli Liderin siyasi əmanəti olan YAP Möhtərəm Prezidentimiz İlham Əliyevin liderliyi ilə fəaliyyətini daha da təkmilləşdirmiş, ölkənin siyasi həyatında və ümumi inkişafında əsas qüvvəyə, Qafqazın ən güclü siyasi təşkilatına çevrilmişdir. Dövlət başçısının qeyd etdiyi kimi: "2003-cü ildən sonra Azərbaycanın uğurlu inkişafı davam etmişdir. Bu inkişafın təmin edilməsində bir daha demək istəyirəm ki, Yeni Azərbaycan Partiyasının çox böyük rolu vardır". Sıralarında ictimaiyyətin bütün təbəqələrini təmsil edən və 700 mindən çox üzvü birləşdirən YAP bu gün Ulu Öndərin işıqlı ideyalarının daşıyıcısı kimi cəmiyyətdə aparıcı rolunu getdikcə möhkəmləndirir, Azərbaycanın davamlı və dayanıqlı inkişafına önəmli töhfələr verir.

***- Ulu öndər Heydər Əliyevin əsasını qoyduğu milli inkişaf siyasəti bu gün uğurla davam etdirilir. Heydər Əliyev siyasətini müasir dövrün tələbləri, reallıqları və çağırışlarına müvafiq surətdə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasətin ölkə iqtisadiyyatının dayanıqlılığının qorunub saxlanması baxımından əhəmiyyətini necə qiymətləndirirsiniz?***

- Azərbaycanın inkişaf etmiş modern dövlətə çevrilməsində sürətli və hərtərəfli inkişafla harmonik olan iqtisadi potensial müstəsna əhəmiyyətə malikdir. Yeni dövrün yeni liderinin- Prezident İlham Əliyevin Ulu Öndərin srtategiyasından qaynaqlanan sosial-iqtisadi siyasəti keyfiyyətcə yeni prioritetləri müəyyən edərək innovasiya əsaslı inkişaf modelinə keçidi şərtləndirmiş, yüksək rəqabət qabiliyyətli və diversifikasiya olunmuş iqtisadiyyatın formalaşmasını sürətləndirmişdir. Azərbaycanda yaradılmış böyük iqtisadi potensial və aparılan məqsədyönlü islahatlar, iqtisadiyyatın şaxələndirilməsi, investisiyaların təşviqi, biznes mühitinin yaxşılaşdırılması, qeyri-neft ixracının stimullaşdırılması, iqtisadi idarəetmənin təkmilləşdirilməsi və digər tədbirlər iqtisadiyyatın davamlı inkişafını təmin edir.

Prezident İlham Əliyev tərəfindən təsdiq edilmiş, başlıca məqsədi uzunmüddətli perspektivdə ölkənin davamlı sosial-iqtisadi inkişafının təmin edilməsi ilə yüksək sosial rifah olan "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf Konsepsiyası, məqsədli dövlət proqramları, strategiyalar, konkret tədbirlər planları, kompleks və davamlı iqtisadi islahatlar ölkədə innovativ və bilik iqtisadiyyatının formalaşması, ixracın diversifikasiyası, idxaldan asılılığın maksimum dərəcədə azaldılması, biznes mühitinin əlverişliliyinin artırılması, investisiyaların cəlbi və digər istiqamətlərdə mühüm işlərin həyata keçirilməsinə hüquqi və iqtisadi zəmin yaratmışdır. Ölkədə həyata keçirilən iqtisadi siyasətin və islahatların davamlılığını təmin etmək üçün iqtisadiyyatın mövcud vəziyyətinin dərindən təhlili və yeni iqtisadi inkişaf strategiyasının hazırlanması məqsədilə dövlət başçısının 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə "Milli iqtisadiyyat və iqtisadiyyatın əsas sektorları üzrə strateji yol xəritələri" təsdiq edilmişdir. Bu mühüm sənəd kənd təsərrüfatından tutmuş sənayeyə qədər bütün sahələri, həmçinin insan kapitalının inkişafı, biznes mühitinin davamlı olaraq yaxşılaşdırılması kimi əsas istiqamətləri əhatə edir.

Azərbaycan Respublikasının Prezidenti, YAP Sədri cənab İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən çevik iqtisadi siyasət regional və qlobal səviyyədə mürəkkəb siyasi və iqtisadi proseslərin davam etdiyi hazırkı şəraitdə belə, ölkə iqtisadiyyatının dayanıqlılığını qoruyub saxlamışdır. Görülən sistemli və qabaqlayıcı tədbirlərin nəticəsidir ki, Azərbaycan iqtisadiyyatı 2008-ci ildə başlayan və sonrakı dövrlərdə də davam edən qlobal iqtisadi böhranı kifayət qədər hazırlıqlı qarşılamış, böhran dövründə investisiya risklərinin yüksək olmasına, qonşu ölkələrdəki devalvasiya dalğasının təsirlərinə baxmayaraq, Azərbaycanda rasional makroiqtisadi siyasət həyata keçirilmiş, yaradılmış valyuta ehtiyatları maliyyə risklərinin qabaqlayıcı rejimdə idarə edilməsində əhəmiyyətli rol oynamışdır.

Statistik göstəricilər də Azərbaycan iqtisadiyyatının inkişafını və dayanıqlılığını bir daha təsdiq edir: Belə ki, strateji valyuta ehtiyatları 2003-cü ilə nisbətən 26,2 dəfə artaraq bu ilin sentyabr ayının sonuna 42 mlrd. ABŞ dolları səviyyəsinə çatmışdır. 2004-2016-cı illərdə ümumi daxili məhsul (ÜDM) real ifadədə 3,2 dəfə, o cümlədən qeyri-neft sektoru 2,7 dəfə artmışdır. Bu dövrdə sənaye real ifadədə 3,8 dəfə, o cümlədən qeyri-neft sənayesi 2,2 dəfə, kənd təsərrüfatı 1,6 dəfə, tikinti 3,4 dəfə, ticarət 3,9 dəfə, turizm 14,2 dəfə, nəqliyyat 2,6 dəfə, rabitə 10,6 dəfə artmışdır. Ölkə iqtisadiyyatına 2004-2017-ci illərdə 225 mlrd ABŞ dolları həcmində investisiya qoyulmuşdur. Davamlı sosial-iqtisadi inkişafın təmin edilməsi məqsədilə dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu xərcləri son 14 ildə dinamik olaraq artmış, investisiya xərcləri dövlət büdcəsində əhəmiyyətli çəkiyə malik olmuşdur.

Azərbaycanın əldə etdiyi uğurlar beynəlxalq təşkilatların və maliyyə institutlarının hesabatlarında da mütəmadi olaraq əksini tapır. Təsadüfi deyildir ki, ölkəmiz dün-

# YAP yeni dövrün qlobal çağırışlarına uyğun sosial-iqtisadi inkişaf hədəflərinin müəyyənləşdirilməsində ideoloji mayak rolunu oynayır

## Azərbaycan Respublikasının iqtisadiyyat naziri, YAP Siyasi Şurasının üzvü Şahin Mustafayevin yap.org.az-a müsahibəsi

yanın ən nüfuzlu təşkilatlarından olan Dünya İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda daha iki pillə yüksələrək 137 ölkə arasında 35-ci yerdə qərarlaşmışdır. Ümumiyyətlə, Azərbaycan "Qlobal rəqabət qabiliyyəti" hesabatları üzrə 2005-ci ildən 2017-cı ilədək 69-cu yerdən 34 pillə irəliləyərək 35-ci yerə yüksəlmiş və 2009-cu ildən indiyədək MDB-də liderliyini qoruyub saxlayır. Qeyd edək ki, "G20"yə daxil olan İtaliya, Rusiya, İndoneziya, Hindistan, Türkiyə, Cənubi Afrika Respublikası kimi ölkələr də iqtisadiyyatın rəqabət qabiliyyəti indeksinə görə Azərbaycandan geridə qalırlar.

Əlverişli biznes və investisiya mühitinin formalaşdırılması, sahibkarlığın inkişafı istiqamətində aparılan islahatlar beynəlxalq təşkilatların hesabatlarında da öz əksini tapır. Belə ki, ölkələrin biznes mühitini qiymətləndirən və ən mühüm hesabatlardan olan "Doing Business 2018" hesabatında 8 pillə irəliləyən Azərbaycan 190 ölkə arasında 57-ci mövqeyə yüksəlmiş, Avropa və Mərkəzi Asiyada 4 və daha çox islahat aparan 3 ölkədən biri olmuşdur. Bu gösrəriciyə Azərbaycanda həyata keçirilən davamlı islahatlar və sosial-iqtisadi sahədə həyata keçirilən siyasət nəticəsində nail olunub.

Azərbaycandakı siyasi sabitlik, əlverişli işgüzar mühit ölkəmizə marağı daha da artırmışdır. Şübhəsiz ki, burada etibarlı tərəfdaş amili xüsusi rol oynayır. Beynəlxalq müqavilələrdən irəli gələn öhdəlikləri tam şəkildə və vaxtında yerinə yetirən Azərbaycanın təşəbbüskarı olduğu transmilli layihələr hazırda Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır. Bakı-Tbilisi-Ceyhan neft, Cənubi Qafqaz Boru Kəməri vasitəsilə Xəzər dənizinin enerji resursları region ölkələrinə və Avropaya nəql edilir.

Son illərdə reallaşdırılan ən mühüm layihələrdən olan, Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən, Prezident İlham Əliyevin "XXI əsrin layihəsi" adlandırdığı "Cənub qaz dəhlizi" layihəsi isə enerji əməkdaşlığımızı genişləndirərək Azərbaycanı Avropanın böyük təbii qaz təchizatçılarından birinə çevirəcəkdir. Bu ilin sentyabrında Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müəllifi olduğu Xəzər dənizinin Azərbaycan sektorunda "Azəri", "Çıraq" və "Günəşli" yataqlarının dərinliklərində yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında düzəliş edilmiş və yenidən tərtib olunmuş sazişin imzalanması Azərbaycanın gələcək inkişafı, maliyyə imkanlarının genişləndirilməsi üçün mühüm əhəmiyyət kəsb edir. Azərbaycanın tranzit imkanlarının reallaşması üçün iri layihələr də reallaşdırılıb. Bu istiqamətdə Beynəlxalq Dəniz Limanının və Gəmiqayırma Zavodunun tikintisi, TRASECA, Şimal-Cənub, Şərq-Qərb dəhlizləri çərçivəsində görülən işlər, bu yaxınlarda istifadəyə verilmiş Bakı-Tbilisi-Qars dəmir yolu xüsusilə vurğulanmalıdır. Prezident İlham Əliyevin təşəbbüsü və prinsipial mövqeyi sayəsində tikilən və əhəmiyyətinə görə "Dəmir İpək yolu" adlandırılan Bakı-Tbilisi-Qars dəmir yolu quru xətlə birbaşa Avropaya çıxış imkanı yaradır.

İqtisadi inkişafda mühüm əhəmiyyət kəsb edən infrastuktunun yaxşılaşdırılması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilmiş, Azərbaycanda 6 beynəlxalq hava limanı inşa olunmuş, minlərlə kilometr müasir yollar çəkilmiş, körpülər və tunellər tikilmiş, 1700-dən artıq yaşayış məntəqəsi təbii qazla təmin edilmiş, 736,4 min nəfəri əhatə edən 434 yaşayış məntəqəsində modul tipli sutəmizləyicisi quraşdırılmış, mərkəzləşdirilmiş içməli su ilə təmin olunan əhalinin sayı 2 dəfədən çox artaraq 4,5 mln. nəfəri ötmüşdür. Dəmir yolu nəqliyyat sistemi inkişaf etdirilmiş, infrastrukturu yenilənmiş, Azərbaycanın ərazisindən keçən nəqliyyat dəhlizlərinin rəqabət qabiliyyətliliyi yüksəlmiş, tranzit daşımalarının həcmi əhəmiyyətli dərəcədə artmışdır.

Bakı Metropoliteninin inkişaf strategiyasına uyğun olaraq, yeni stansiyalar istifadəyə verilmiş, stansiyaların sayı 25-ə çatdırılmışdır. Təkcə son 14 il ərzində ümumi gücü 2300 MVt-dən artıq olan 26 yeni elektrik stansiyası istismara verilmiş, 10 min kilometrdən artıq elektrik verilişi xətləri, xeyli sayda yarımstansiya inşa edilmiş və yenidən qurulmuşdur.

***- Ölkəmizdə sənayeləşmə və qeyri-neft sənayesinin inkişafı istiqamətində görülən işlər iqtisadiyyatın şaxələndirilməsinə necə təsir göstərir?***

- Ölkəmizdə həyata keçirilən iqtisadiyyatın şaxələndirilməsi siyasətinin mühüm istiqamətlərindən biri də sənayeləşmə və qeyri-neft sənayesinin inkişafıdır. Təsadüfi deyil ki, sənayenin inkişafına xüsusi önəm verən dövlət başçısı tərəfindən 2014-cü il Azərbaycanda "Sənaye ili" elan edilmiş, "Azərbaycan Respublikasında sənayenin inkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı" qəbul olunmuşdur. Müasir texnologiyaların və qabaqcıl təcrübənin tətbiqi nəticəsində son illər ölkədə sənayeləşmə templəri yüksəlmiş, metallurgiya, maşınqayırma, kimya, inşaat materiallarının istehsalı, qida və digər ənənəvi sənaye sahələri genişlənməklə yanaşı, yeni sənaye sahələri yaradılmış, bir sıra sənaye məhsulları üzrə özünütəminetmə səviyyəsi yüksəlmişdir. İlk süni peykin orbitə buraxılması ilə kosmik sənayenin əsası qoyulmuş, "Azərspace" və "Azersky" telekommunikasiya peykləri orbitə buraxılmış, Azərbaycan dünya kosmos ailəsinin üzvünə çevrilmişdir. Bu yaxınlarda "Azərspace-2" peykinin orbitə buraxılması nəzərdə tutulur. Müdafiə sənayemiz artıq ordumuzu müasir silahlarla təchiz edir və onun məhsulları beynəlxalq sərgilərdə uğurla nümayiş etdirilir və inkişaf etmiş xarici ölkələrə satılır. Alternativ və bərpa olunan enerji sahəsində bir sıra müəssisələrin işə düşməsi ilə Bakı şəhərinin müxtəlif ərazilərinin işıqlandırılmasında qeyri-ənənəvi vasitələrdən, o cümlədən günəş panellərindən və külək generatorlarından istifadə olunmağa başlanmışdır. Müasir texnologiyalar əsasında Gəmiqayırma zavodu yaradılmış və bununla da daha bir yeni sənaye sahəsinin əsası qoyulmuşdur. Bərk Məişət Tullantılarının Yandırılması Zavodu ölkədə ekoloji vəziyyətin yaxşılaşdırılmasına və ətraf mühitə mənfi təsirlərin azaldılmasına xidmət etməklə yanaşı, həm də tullantıları enerjiyə çevirir. Azərbaycan üçün ənənəvi olmayan bu zavod istehsalat gücünə görə Şərqi Avropada və MDB məkanında ən iri bu tipli müəssisədir və Avropa Birliyinin ətraf mühitin mühafizəsi sahəsində ən sərt normativlərinə tam cavab verir.

Bununla yanaşı, sənaye və yüksək texnologiyalar parklarının, sənaye məhəllələrinin yaradılması istiqamətində ciddi addımlar atılmış, kimya, təkrar emal, gəmiqayırma, yüksək texnologiyalar, yüngül sənaye, əczaçılıq sahələrində ixtisaslaşmış sənaye və texnologiyalar parkları - Sumqayıt Kimya Sənaye, Balaxanı, Qaradağ, Mingəçevir, Pirallahı sənaye parkları, 3 Yüksək Texnologiyalar Parkı yaradılmışdır. Bu ilin sentyabrında Azərbaycanda ilk sənaye məhəlləsi - Neftçala Sənaye Məhəlləsi Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə istifadəyə verilmişdir. Masallı Sənaye Məhəlləsində hazırda sürətlə tikinti işləri aparılır və bu işlər 2017-ci ilin sonunda başa çatdırılacaqdır. Hacıqabul Sənaye Məhəlləsinin təşkili istiqamətində işlər davam etdirilir. Dövlət başçısının tapşırığına əsasən, ölkəmizin digər regionlarında da sənaye məhəllələrinin yaradılması istiqamətində araşdırmalar aparılır.

Qeyri-ənənəvi sənaye sahələri ilə yanaşı, ənənəvi sənaye sahələrinin inkişafına da böyük diqqət göstərilir. Məsələn, ölkədə xalçaçılıq sahəsini inkişaf etdirmək məqsədilə yaradılmış "Azərxalça" ASC-nin xalça istehsalı müəssisələrinin yaradılması işləri davam etdirilir. Belə ki, Füzuli rayonunun Horadiz qəsəbəsində və Şəmkir rayonunda bu müəssisələr artıq istifadəyə verilmiş, 6 rayonda emalatxanalar istismara tam hazır vəziyyətə gətirilmiş, digər 2 rayonda isə işlər cari ilin sonunadək yekunlaşacaqdır. Növbəti illərdə belə müəssisələrin sayının 30-a çatdırılacağı planlaşdırılır. Xalçaçılığın xammal bazasının yaradılması üçün Sumqayıtda Yunəyirici Boyaq fabrikinin tikintisinə bu ilin sonunda başlanılması, 5 rayonda yun və boyaq maddələri tədarükü məntəqələrinin yaradılması nəzərdə tutulur. Bütün bunlar isə, idxaldan asılılığı əhəmiyyətli dərəcədə azaltmaqla yanaşı, ixrac potensialını genişləndirəcəkdir.

Beləliklə, YAP yaradıcısı Heydər Əliyevin müəllifi olduğu sənayeləşmə siyasətinin Prezident İlham Əliyevin rəhbərliyi ilə davam etdirilməsi sənayedə də əsaslı dönüşə səbəb olmuş, bu sahənin ölkə iqtisadiyyatının aparıcı qüvvəsinə çevrilməsini, innovativ və rəqabətqabiliyyətli məhsul istehsalının genişlənməsini və bir sıra məhsullar üzrə idxalın əvəz olunmasını təmin etmişdir.

***- Kənd təsərrüfatı sahəsində və regionların sosial-iqtisadi inkişafı istiqamətində həyata keçirilən tədbirlərin nəticələri nədən ibarətdir?***

- Ümummilli Liderimizin kənd təsərrüfatı sahəsində əsasını qoyduğu islahatlar kursunun uğurlu davamı aqrar-sənaye kompleksinin sürətli inkişafına təkan vermişdir. Aqrar sahənin vergilərdən azad edilməsi, subsidiyaların, güzəştli kreditlərin verilməsi və digər dövlət dəstəyi mexanizmlərinin tətbiqi, bu sahədə infrastrukturun yaxşılaşdırılması, dövlət investisiyaları hesabına Taxtakörpü, Şəmkirçay və Tovuzçay su anbarları, Baş Mil-Muğan kollektorunun tikintisi və digər iri layihələrin reallaşdırılması, həyata keçirilən meliorativ tədbirlər, aqrotexniki xidmət işlərinin yerinə yetirilməsinin keyfiyyətini yüksəltmək üçün "Aqrolizinq" ASC-nin yaradılması, 2015-ci ilin "Kənd təsərrüfatı ili" elan edilməsi və s. bu sahənin inkişafına təkan vermişdir.

Aqrar sektorun innovativ meyarlara uyğun qurulması, o cümlədən aqroparkların yaradılması əsas hədəflərdəndir. Dövlət başçısının tapşırığına uyğun olaraq, hazırda 26 rayon üzrə 40 aqroparkın, o cümlədən 14 müasir cins heyvandarlıq kompleksinin və 26 iri bitkiçilik təsərrüfatlarının yaradılması təşviq olunur. Artıq Xaçmaz, Şəmkir və Cəlilabad rayonlarında aqroparklarda 1-ci mərhələ üzrə işlər başa çatdırılmışdır. 14 aqroparkın isə təşkili işlərinə başlanmışdır. Ümumi dəyəri 270 milyon manat olan 12 aqroparkın yaradılmasına 86.4 milyon manat güzəştli kredit verilmişdir. Aqroparkların yaradılması quşçuluq və heyvandarlığın xammala olan tələbatının yerli istehsal hesabına ödənilməsi ilə yanaşı, ərzaq məhsullarının idxalının maksimum endirilməsinə və kənd təsərrüfatı məhsullarının ixrac imkanlarının genişlənməsinə imkan yaradacaqdır.

Son illərdə 20 rayonun ərazisində 44 min hektar sahədə 32 iri fermer təsərrüfatı yaradılmışdır. İnvestisiya dəyəri 193 milyon manat olan bu iri fermer təsərrüfatlarının yaradılmasına 70,5 milyon manat güzəştli kredit verilmişdir. Bu təsərrüfatlarda müasir aqrotexniki xidmətlər tətbiq olunmaqla yüksək məhsuldarlıq əldə olunur ki, bu, ərzaq təhlükəsizliyinin daha da möhkəmləndirilməsində xüsusilə əhəmiyyətlidir.

Dövlət başçısı tərəfindən ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən pambıqçılığın, baramaçılığın, ipəkçiliyin, tütünçülüyün, çəltikçiliyin, çayçılığın, fındıqçılığın, sitrus meyvəçiliyinin inkişafı istiqamətində imzalanmış sərəncamlar, keçirilmiş müşavirələr, həmçinin istehsalçılara subsidiyaların verilməsi, sahəvi dövlət proqramları ixrac potensialının artırılmasına və məşğulluq səviyyəsinin yüksəlməsinə mühüm təkan vermişdir.

Ardı Səh. 10

# YAP yeni dövrün qlobal çağırışlarına uyğun sosial-iqtisadi inkişaf hədəflərinin müəyyənləşdirilməsində ideoloji mayak rolunu oynayır

*Azərbaycan Respublikasının iqtisadiyyat naziri, YAP Siyasi Şurasının üzvü Şahin Mustafayevin yap.org.az-a müsahibəsi*

Əvvəli-Səh-9

Əsası Ümummilli Liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş regionların inkişafı siyasəti uğurla davam etdirilir. Bölgələrin inkişafının yeni keyfiyyət mərhələsinə yüksəlməsində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən təsdiq edilmiş regionların sosial-iqtisadi inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramlarının icrası böyük əhəmiyyət kəsb edir. İndiyədək bu sahədə 3 dövlət proqramı qəbul olunmuş və onlardan ikisi artıq uğurla icra edilmişdir. Hazırda "Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın icrası davam etdirilir. Dövlət proqramları çərçivəsində regionlarda infrastrukturun inkişafı, əhalinin kommunal xidmətlərlə, o cümlədən elektrik enerjisi, qaz və su ilə təchizatının yaxşılaşdırılması, səhiyyə və təhsil müəssisələrinin tikintisi istiqamətində mühüm tədbirlər həyata keçirilmiş, bu sahəyə irihəcmli dövlət investisiyaları yönəldilmişdir.

2004-cü ildən uğurla icra olunan bu proqramlar şəhər və rayonların simasını köklü şəkildə dəyişmiş, regionların potensialının artmasına, infrastruktur təminatının, kommunal xidmətlərin keyfiyyətinin, biznes və investisiya mühitinin yaxşılaşmasına və əhalinin rifahının yüksəlməsinə geniş imkanlar açmışdır.

Ölkənin sosial-iqtisadi inkişafı sahəsində həyata keçirilən məqsədyönlü siyasət nəticəsində 2004-2017-ci ilin ötən dövrü ərzində 1,43 milyonu daimi olmaqla, 1,9 milyondan artıq yeni iş yeri yaradılmışdır. Daimi iş yerlərinin 67,5 faizi regionların payına düşür.

Dövlət başçısının müvafiq sərəncamları ilə qəbul edilmiş Bakı şəhərinin və onun qəsəbələrinin sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının uğurlu icrası paytaxtın hər bir rayon və qəsəbəsinin inkişafının təmin edilməsi, əhalinin sosial-məişət şəraitinin yaxşılaşdırılması, mövcud problemlərin aradan qaldırılması sahəsində mühüm rol oynamış, müxtəlif sahələri əhatə edən konkret tədbirlər uğurla icra olunmuşdur.

Prezident İlham Əliyevin dediyi kimi: "Azərbaycanın hər bir yerində quruculuq-abadlıq işləri aparılır, regionların sosial-iqtisadi inkişafı proqramı icra edilir. Əlbəttə, bu proqram həm yeni iş yerlərinin açılmasına xidmət edir, eyni zamanda, bölgələrin sosial problemlərinin aradan qaldırılmasına kömək göstərir".

***- Biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı sahəsində görülən işlər barədə nə deyə bilərsiniz?***

- Müstəqil Azərbaycanın inkişaf strategiyasında biznes və investisiya mühitinin davamlı olaraq yaxşılaşdırılması, sahibkarlığın inkişafı prioritet istiqamətlərdəndir. Dövlət başçısının "Ölkəmizin inkişafı sahibkarlığın inkişafından asılıdır" kursuna uyğun olaraq, bu istiqamətdə sistemli və ardıcıl tədbirlər həyata keçirilmiş, qanunvericilik bazası təkmilləşdirilmiş, inzibati prosedurlar sadələşdirilmiş, vergi yükü azaldılmış, sahibkarlığa sistemli dövlət dəstəyi tədbirləri həyata keçirilmişdir.

Azərbaycan İnvestisiya Şirkəti, Sahibkarlığa Kömək Milli Fondu, "Aqrolizinq" ASC vasitəsilə özəl sektora göstərilən dəstək, AZPROMO, Bakı Biznes Tədris Mərkəzi və s. mexanizmlər vasitəsilə göstərilən məsləhət xidmətləri sahibkarlığın inkişafı baxımından əhəmiyyətlidir. Təkcə son 14 ildə layihələrinin ümumi dəyəri 4 milyard manatdan çox olan 34 mindən çox sahibkara 2 milyard manatdan çox güzəştli kredit verilmişdir. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 154 minə yaxın yeni iş yerinin açılması imkanı yaratmışdır. Verilmiş güzəştli kreditlərin 1 milyard manatı büdcə, 1 milyard manatı geri qaytarılan vəsaitlərdir. Güzəştli kreditlərin 70%-i aqrar sektorun, 30%-i müxtəlif sənaye və digər sahələrin inkişafına yönəldilmişdir. Verilmiş kreditlərin 75.4%-i regionların, 24.6%-i isə Bakı qəsəbələrinin payına düşür.

Özəl bölmənin inkişafında əhəmiyyətli mexanizmlərdən olan "Aqrolizinq" ASC vasitəsilə 2004-cü ildən kənd təsərrüfatı texnikası lizinqə verilir, pestisidlər, texnoloji avadanlıqlar, tinglər, toxumlar, cins damazlıq heyvanlar güzəştli şərtlərlə istehsalçılara çatdırılır, aqrotexniki xidmətlər göstərilir.

Sahibkarlıq fəaliyyətinə başlayanların dəstəklənməsi üçün Xaçmazda və Yevlaxda yerləşən regional inkişaf mərkəzlərində biznes inkubatorlar yaradılmışdır. Lazımi şərait və avadanlıqlarla, eləcə də tədris materialları ilə təmin olunmuş biznes inkubatorlarda sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyənlərə biznesin sirləri öyrədilir. Hazırda mövcud biznes inkubatorların inkişaf etdirilməsi və yenilərinin yaradılması imkanları araşdırılır.

Dövlət başçısının yeni qlobal çağırışların nəzərə alındığı iqtisadi islahatlar paketinə uyğun olaraq, 2015-ci il noyabr ayının 1-dən sahibkarlıq sahəsində aparılan yoxlamalar dayandırılmış, sahibkarların hüquqlarının daha etibarlı müdafiəsi məqsədilə apelyasiya şuraları yaradılmış, ixracın və investisiyaların təşviqi mexanizmləri formalaşdırılmış, dövlət satınalmalarında yerli mallar üçün güzəştlər müəyyən olunmuş, gömrük prosedurları sadələşdirilmiş, tələb olunan sənədlərin sayı azaldılmış və konkretləşdirilmiş, idxal-ixrac əməliyyatları sahəsində mütərəqqi mexanizmlər (yaşıl dəhliz, elektron bəyanetmə və s.) tətbiq edilmiş, kənd təsərrüfatının ənənəvi sahələrinin inkişafı üçün subsidiyalar müəyyənləşdirilmişdir. Lisenziya və icazələr sahəsində aparılmış islahatlara əsasən lisenziya tələb olunan fəaliyyət növlərinin, eləcə də icazələrin sayı əhəmiyyətli dərəcədə azaldılmış, indiyə kimi verilmiş qüvvədə olan müddətli lisenziyalar və yeni verilən lisenziyalar müddətsiz lisenziya ilə əvəz olumuşdur. İnvestisiya fəaliyyətinin genişləndirilməsi və təşviqi, sərmayə qoyuluşunun stimullaşdırılması məqsədilə sahibkarlara investisiya təşviqi sənədlərinin verilməsinə başlanmışdır. İndiyədək 194 sahibkarlıq subyektinə 213 investisiya təşviqi sənədi təqdim edilmişdir. İnvestisiya təşviqi sənədi təqdim edilmiş layihələrin reallaşması nəticəsində yerli istehsala 1,8 milyard manat investisiya yatırılacağı, 13 mindən çox yeni iş yerinin açılacağı gözlənilir. Eyni zamanda, bu investisiya təşviqi sənədləri əsasında texnikanın, texnoloji avadanlıq və qurğuların güzəştli şərtlərlə idxalı üçün 165 sahibkarlıq subyektinə 1037 təsdiqedici sənəd təqdim edilmişdir. Təsdiqedici sənədlər əsasında sahibkarlıq subyektləri tərəfindən əldə olunan ümumi güzəştin dəyəri 44 milyon ABŞ dollarından çoxdur.

İqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən sahibkarlıq subyektlərinin işinin əlaqələndirilməsi, müvafiq sahənin inkişafı ilə bağlı təkliflərin hazırlanması məqsədilə Meyvə və Tərəvəz, Arıçılar, Fındıq, Nar, Xurma, Tütün, Şərab, Tekstil İstehsalçıları və İxracatçıları, Tikinti Materialları, Mebel və Qablaşdırma Sənayesi, Sahibkar Qadınlar assosiasiyaları, İxracatçılar Klubu yaradılmışdır.

Görülmüş işlər nəticəsində Azərbaycanda güclü özəl sektor formalaşmış, müasir texnologiyalara əsaslanan minlərlə müəssisə açılmış, özəl bölmənin payı ÜDM-də 80%-i, məşğulluqda 75%-i, dövlət qeydiyyatına alınmış sahibkarlıq subyektlərinin sayı isə 880 mini ötmüşdür.

***- Şahin müəllim, bütövlükdə ötən illər ərzində iqtisadiyyatın müxtəlif sahələrində əldə olunan uğurların ölkəmizin dayanıqlı inkişafı baxımından əhəmiyyətin**i necə dəyərləndirirsiniz?*

- Əlverişli coğrafi mövqeyi olan Azərbaycanın tranzit potensialının reallaşdırılması iqtisadi diversifikasiya siyasətində mühüm yer tutur. Dövlət başçısının Azərbaycanın nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı həyata keçirdiyi dövlət siyasəti və qlobal miqyaslı təşəbbüsləri ölkəmizin sosial-iqtisadi inkişafına əsaslı töhfə verməklə, Azərbaycanı mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirmişdir. Ölkəmizdə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı irimiqyaslı layihələr həyata keçirilmiş, bu sahəyə böyük həcmli dövlət investisiyaları yönəldilmişdir. Avtomobil yollarının və dəmir yolu xətlərinin, xüsusilə Gürcüstan, Rusiya və İran istiqamətində ölkə ərazisindən keçən magistral yolların beynəlxalq standartlar əsasında yenidən qurulması, Bakıda və regionlarda beynəlxalq hava limanlarının, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində həyata keçirilən tədbirlər Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynamaqla yanaşı, ölkəmizin tranzit potensialını daha da gücləndirmişdir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın xarici əlaqələri daha da genişlənmiş, müstəqil siyasət həyata keçirən ölkəmizin dünyada nüfuzu daha da artmış, ixracın coğrafiyası genişlənmişdir. Dövlət başçısının qeyd etdiyi kimi: "...ölkəmizin uğurlu inkişafı və son illərdə iqtisadi müstəqilliyimizin tam şəkildə təmin olunması bizə imkan verir ki, xarici arenada da öz sözümüzü deyək, öz maraqlarımızı müdafiə edək".

Azərbaycanın əlaqələrinin inkişafında yüksək səviyyəli xarici səfərlər, aparılan danışıqlar, imzalanmış sənədlər, beynəlxalq və regional təşkilatlarla aparılan səmərəli əməkdaşlıq xüsusi vurğulanmalıdır. Bütün bunların nəticəsidir ki, Azərbaycanın BMT və onun qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi nüfuzlu beynəlxalq institutlarla əlaqələri daha da genişlənmişdir.

Azərbaycanın xarici ticarətinin coğrafiyası genişlənmiş, onun əmtəə strukturu təkmilləşmişdir. Hazırda Azərbaycan 190-a yaxın ölkə ilə xarici ticarət əməliyyatları aparır.

Siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici investisiyalar üçün ən cəlbedici ölkələrdən birinə çevirmişdir. Bu günədək Azərbaycan Respublikası hökuməti ilə xarici dövlətlər arasında investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında 48 saziş imzalanmışdır. Ümumilikdə, 1995-2016-cı illərdə ölkə iqtisadiyyatına 233,4 mlrd. ABŞ dolları həcmində investisiya qoyulub ki, bunun da 116,4 mlrd. ABŞ dolları xarici investisiyalardır.

Davamlı iqtisadi inkişaf, maliyyə imkanlarının artması, özəl sektorun inkişafı Azərbaycanı eyni zamanda investisiya ixracatçısına çevirmişdir. Ölkəmiz Türkiyə, Gürcüstan, Rusiya, ABŞ, Yaponiya, Çin, İsveçrə, Serbiya, Monteneqro, Ukrayna və digər ölkələrə əhəmiyyətli həcmdə investisiya yatırmışdır. Azərbaycan şirkətlərinin potensialı və peşəkarlığı yüksəlmiş, bir sıra ölkələrdə, o cümlədən Avropada mühüm infrastruktur layihələrinin icrasında özəl şirkətlərimiz aktiv fəaliyyət göstərməyə başlamışdır. Bununla yanaşı, Yaxın Şərq, ABŞ və Asiya ölkələri ilə də əməkdaşlığımız genişlənir və bu regionlarla iqtisadi əlaqələrin inkişaf etdirilməsi daim diqqət mərkəzində saxlanılır. Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, yeni bazarlara çıxışın təmin edilməsi ilə bağlı reallaşdırılan tədbirlər çərçivəsində Qazaxıstanın Aktau şəhərində kənd təsərrüfatı və digər qida məhsullarının saxlanmasını və satışını təmin edəcək logistik mərkəz yaradılmışdır.

İxracın genişləndirilməsi, rəqabətədavamlı və ixrac potensiallı məhsullar bazasının zənginləşdirilməsi istiqamətində dövlət başçısının "Made in Azerbaijan" brendinin xarici bazarlarda genişmiqyaslı təşviqinə dair 5 oktyabr 2016-cı il tarixli fərmanı mühüm əhəmiyyət kəsb edir. Fərmana uyğun olaraq, potensial ixrac ölkələrinə ixrac missiyaları təşkil edilir, ölkəmizin beynəlxalq əhəmiyyətli sərgilərdə "Made in Azerbaijan" vahid ölkə stendi ilə iştirakı təmin olunur, Azərbaycan məhsulları xarici KİV-də reklam edilir, ixrac təşviqinin geri ödənilməsi mexanizmi tətbiq edilir.

Azərbaycan məhsullarının ixrac bazarlarında tanıdılması və satışının dəstəklənməsi məqsədilə artıq Belarusda Azərbaycan Ticarət Evi fəaliyyətə başlamışdır. Bununla yanaşı, Rusiya, Ukrayna və digər ölkələrdə də ticarət evlərinin yaradılması işləri aparılır.

Bununla yanaşı, Rusiya Federasiyası, Çin Xalq Respublikası, Birləşmiş Ərəb Əmirlikləri və Mərkəzi Avropa ölkələri üzrə Azərbaycanın ticarət nümayəndələri təyin edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı, onun qayğıları, rifahı, sağlamlığı və təhlükəsizliyi dayanır" strateji xəttinə uyğun olaraq, əhalinin sağlamlığının qorunması, təhsilin səviyyəsinin yüksəldilməsi, səmərəli məşğulluğunun təmin edilməsi və s. istiqamətlərdə kompleks tədbirlər davam etdirilir, bu sahəyə yönəldilən vəsaitlərin həcmi ildən-ilə artırılır. Həyata keçirilmiş sosialyönümlü siyasətin nəticəsi olaraq, orta aylıq əmək haqqı 2003-cü ildəki 77,4 manatdan 2016-cı ildə 499,8 manatadək yüksəlmişdir. Bu dövrdə əhalinin nominal gəlirləri 7,9 dəfə artmış, yoxsulluğun səviyyəsi 2003-cü ildəkinə nisbətən 8 dəfəyədək, işsizlik səviyyəsi isə 5%-dək azalmışdır.

Ardı Səh. 11

# YAP yeni dövrün qlobal çağırışlarına uyğun sosial-iqtisadi inkişaf hədəflərinin müəyyənləşdirilməsində ideoloji mayak rolunu oynayır

*Azərbaycan Respublikasının iqtisadiyyat naziri, YAP Siyasi Şurasının üzvü Şahin Mustafayevin yap.org.az-a müsahibəsi*

Əvvəli-Səh-10

Təsadüfi deyildir ki, ötən müddət ərzində uğurlu sosial siyasət həyata keçirən Azərbaycan 2010-cu ildən etibarən yüksək insan inkişafı kateqoriyalı ölkələr sırasına daxil edilmiş, 2015-ci ildə Minilliyin İnkişaf Məqsədlərinin icrasında əldə etdiyi nailiyyətlərə görə "Cənub-Cənub" mükafatına layiq görülmüşdür.

Son illərdə 3000-dən çox orta məktəbdə, 300-dən çox məktəbəqədər təhsil müəssisəsində və 600-dən çox səhiyyə müəssisəsində tikinti, əsaslı təmir və yenidənqurma işləri həyata keçirilmişdir. Regionlarda 40-dan artıq olimpiya idman kompleksi inşa olunmuşdur.

İnsan kapitalının inkişafı məqsədilə "2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı" çərçivəsində minlərlə Azərbaycan gənci dünyanın nüfuzlu ali təhsil müəssislərində ölkəmiz üçün prioritet hesab olunan ixtisaslar üzrə təhsil almışlar.

Həyata keçirilən siyasətin mühüm istiqamətlərindən biri də əhalinin sosial müdafiəyə daha çox ehtiyacı olan hissəsinə, o cümlədən əlillərə, müharibə veteranlarına, aztəminatlı vətəndaşlara, qaçqın və məcburi köçkünlərə xüsusi diqqətin göstərilməsidir. Bu dövrdə əlil və şəhid ailələrinin mənzil və məişət şəraitinin yaxşılaşdırılmasına xüsusi diqqət yetirilmiş, 5000-dən çox əlil və şəhid ailəsi mənzillə təmin olunmuşdur.

Prezident İlham Əliyevin yeni həyat bəxş etdiyi və "Böyük Qayıdış"ın rəmzinə çevrilən Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinə 24 illik fasilədən sonra qayıdan sakinlər üçün 1-ci mərhələdə 50 fərdi yaşayış evi, məktəb, məscid binası istifadəyə verilmiş, infrastruktur işləri və kommunal tədbirlər həyata keçirilmişdir. Bununla da, Cocuq Mərcanlı Azərbaycan torpaqlarının təcavüzkar Ermənistan tərəfindən işğal olunması nəticəsində öz yurd-yuvasından didərgin düşmüş məcburi köçkünlərin öz torpaqlarına qayıtdığı ilk yaşayış məskəni kimi tarixə düşmüşdür.

Ümumiyyətlə, son 14 il ərzində məcburi köçkünlərin mənzil şəraitinin yaxşılaşdırılması məqsədilə onlarla qəsəbə salınmış, 37 min ailə mənzillə təmin olunmuşdur.

Bütün bu layihələrin reallaşdırılmasında Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın xidmətləri böyükdür. Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə reallaşdırılan layihələr Azərbaycanda sosial sahənin inkişafına mühüm töhfələr vermiş, minlərlə insanın sosial şəraitinin yaxşılaşması üçün yeni imkanlar yaratmışdır. Ölkə miqyasında, həmçinin çoxsaylı xarici dövlətlərdə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən sosial layihələr həm də Azərbaycanın dünyada nüfuzunun artmasında xüsusi əhəmiyyətə malikdir.

Dövlət başçısının tapşırığı ilə böyük sosial əhəmiyyət kəsb edən dərman vasitələri bazarında tənzimlənmə aparılmış, dövlət qeydiyyatına alınmış on mindən artıq dərman vasitəsinin qiymətləri təsdiq edilmiş, icbari tibbi sığorta sisteminin tətbiqi ilə bağlı pilot layihəyə start verilmişdir.

Ölkəmizdə əhalinin mənzilə olan tələbatının ödənilməsi və məişət şəraitinin yaxşılaşdırılması, habelə kommunal xidmətlərlə təminatı səviyyəsinin və keyfiyyətinin yüksəldilməsi məqsədilə mənzil-kommunal sahəsində köklü islahatlar aparılmış, sahənin bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf etdirilməsi, yaşayış sahəsinin əldə olunması imkanlarının genişləndirilməsi, kommunal xidmətlər sahəsində keyfiyyətin və vətəndaş məmnunluğunun yüksəldilməsi istiqamətində davamlı tədbirlər həyata keçirilir. Bu baxımdan, 2009-cu ilin 1 oktyabrdan qüvvəyə minmiş yeni Mənzil Məcəlləsi müvafiq sahədə əsas hüquqi baza rolunu oynamaqla, sahənin inkişafında mühüm əhəmiyyət kəsb edir. Əhalinin, xüsusilə də gənc və aztəminatlı ailələrin mənzilə və yaşayış evlərinə tələbatın ödənilməsi məqsədi ilə ipoteka kreditləşməsi sistemi yaradılmışdır. Kommunal sahədə xidmətlərin göstərilməsində idarəetmənin optimallaşdırılması və şəffaflığın artırılması, "ASAN xidmət" təcrübəsinin digər xidmət sahələrində tətbiq edilməsi məqsədi ilə "ASAN kommunal" mərkəzləri yaradılmış və bu sahədə vətəndaş məmnunluğu təmin olunmuşdur.

Yuxarıda qeyd edildiyi kimi, ötən illər ərzində iqtisadiyyatın müxtəlif sahələrində ciddi uğurlar əldə olunub. Bu nailiyyətlərin qazanılmasında 25-illik yubileyini qeyd edən YAP-ın ideoloji dəstəyi, rəhbər tutduğu milli inkişaf konsepsiyası, partiya üzvlərinin ölkəmizin siyasi-iqtisadi həyatında fəal iştirakı xüsusilə qeyd edilməlidir. YAP milli intibah və hərtərəfli inkişaf ideyalarının əsas ifadəçisi olan siyasi təşkilat kimi yeni dövrün qlobal çağırışlarına uyğun sosial-iqtisadi inkişaf oriyentirlərinin və hədəflərinin müəyyənləşdirilməsində də daim ideoloji mayak rolunu oynayır.

Beləliklə, qeyd edilənlər bir daha göstərir ki, Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının sədri cənab İlham Əliyev böyük fədakarlıqla və qətiyyətlə YAP-ın qurucusu Heydər Əliyev siyasi kursunu uğurla davam etdirir, regionda söz sahibi olan ölkəmizin dünyada nüfuzu daha da artır. Dövlət başçısının "Bizim hamımızın məqsədi ondan ibarət olmalıdır ki, ölkəmizin maraqlarını müdafiə edək, ölkəmizi bütün bəlalardan qoruyaq, sabitliyi, inkişafı davam etdirək" strateji xətti qarşıdakı illərdə də Azərbaycanın dayanıqlı inkişafı üçün möhkəm zəmin yaradır.

Əminik ki, malik olduğu potensial, xalqın inamı, ideyalarının mükəmməlliyi sayəsində Yeni Azərbaycan Partiyası bundan sonra da Azərbaycanın inkişafı və çiçəklənməsində daim fəal iştirak edəcəkdir.

# Sərt qanunların qəbulu reketçiliyin aradan qaldırılmasına imkan yaradar

Mətbuat Şurası tərəfindən reketçiliyə qarşı mübarizə tədbirlərinin gücləndirilməsinə baxmayaraq, hələ də, bu istiqamətdə problemlər qalmaqdadır. Mətbuatın qara yarası hesab olunan reket jurnalistlər şantaj və böhtan yolu seçməklə müəssə və təşkilat rəhbərlərindən pul almağa çalışır, xalqını sevən, dövlətinə bağlı olan insanları gözdən salmaq üçün dezinformasiya xarakterli məlumatlar yayırlar. Bununla da, medianın adını ləkələyir və jurnalist adına xələl gətirirlər. Söhbət etdiyimiz qəzet baş redaktorları problemin köklü həlli üçün qanunvericilikdə ciddi dəyişikliklərin edilməsinə zərurət yarandığını bildirdilər.



## "Şərq" qəzetinin baş redaktoru Akif Aşırlı: "Hüquq-mühafizə orqanları bu sahədə iş görməlidir"

- Mətbuat Şurası tərəfindən reketçiliyə qarşı mübarizə tədbirləri ilə bağlı verilən qərarlarla ayrı-ayrı reket qəzetlərinin adının "qara siyahı"ya salınması sırf ictimai qınağa hesablanmış bir addımdır. Bu addımın, müəyyən mənada, səmərəsi də oldu. Ancaq bütövlükdə, reket jurnalistikasının kökünün kəsilməsi üçün cəmiyyətin özünün bir müqaviməti lazımdır. Cəmiyyət təkcə mediadan ibarət deyil. Media cəmiyyətin marağını müdafiə etdiyinə görə, cəmiyyətdə əsl peşəkarları müdafiə eləməlidir və peşəkarların yanında olmalıdır. Ancaq təəssüflər olsun ki, cəmiyyətin ayrı-ayrı sahələrində, ayrı-ayrı vəzifəli şəxslər və strukturlarda əyləşənlər reketlər üçün stimul yaradırlar. Bir sözlə, reketçiliklə məşğul olan şəxsləri dolandırmaq üçün onların saytlarına maliyyə vəsaitləri ayırırlar. Məhz buna görə də, Mətbuat Şurasının reketçiliyə qarşı mübarizə tədbirləri ilə bağlı gördüyü iş səmərəsiz olur. Bu baxımdan da, birinci növbədə, cəmiyyətin özü sağlamlaşmalı və ciddi mətbuatın yanında olmaqlarını sübut etməlidirlər. O cümlədən, hüquq-mühafizə orqanları bu sahədə iş görməlidir.



## "Paralel" qəzetinin baş redaktoru Tapdıq Abbas: "Reketçiliyə qarşı mübarizə günün aktual məsələlərindəndir"

- Reketçiliyə qarşı mübarizə günün aktual məsələlərindəndir. Kağız mediadan internet mediaya keçid, internet medianın önə çıxması və burada saysız-hesabsız portalların, saytların açılması yeni problemlər yaradır. Ona görə də, bu gün internet saytlarında reketçilik özünün yeni bir güclənmə dövrünü keçirir. Buna görə də, qanunçuluq bu reketçiliyə qarşı mübarizəni daha səmərəli aparmaq üçün mütləq dəyişiklik etmək və qanunları bir qədər sərtləşdirmək lazımdır. Açıq şəkildə internet mediada şəxsiyyətin təhqiri, böhtan, qərəz, yalan və şantaj baş alıb gedib. Son günlər Mətbuat Şurası Reket Komissiyası 9 saytı "qara siyahı"ya salıb. Yəni bu internet portalların hər birini açıb baxdıqda, bütün səhifələrin hamısında ilk olaraq gözə şəxsiyyətə qarşı qərəzlilik, şər və böhtan dolu məlumatlar dəyir. Onlar bu yolla təzyiq göstərərək öz çirkin məqsədlərinə nail olmaq üçün bütün vasitələrə əl atdıqlarını nümayiş etdirirlər. Reketçiliyə qarşı qanunları bir qədər də sərtləşdirməyə ciddi ehtiyac var.

**GÜLYANƏ**

# "Azərişıq": Abonentlərin elektrik enerjisi ilə təchizatında heç bir problem olmayacaq



2018-2019-cu ilin payız-qış mövsümü əvvəlki illərdən yaxşı mənada fərqlənəcək. Abonentlərin elektrik enerjisi ilə təchizatında heç bir problem olmayacaq, tələbat tamamilə ödəniləcək. Bu barədə AZƏRTAC-a "Azərişıq" ASC-nin mətbuat xidmətinin rəhbəri Tanrıverdi Mustafayev bildirib. "Xüsusilə də dağ və dağətəyi rayonlarda hava şəraitinin sərt keçməsi ehtimalı ilə əlaqədar əlavə mal-materiallarımız, avadanlıqlarımız, maşın-mexanizmlərimiz var, ehtiyatımız böyükdür. Hazırda bütün yarımstansiyalarda təftiş işləri davam etdirilir. Havanın şıltaqlığı nəticəsində hər hansı qəza baş verərsə, həmin qəzaların operativ şəkildə aradan qaldırılmasına tam hazırıq. Bizim 24 saat fəaliyyət göstərən Çağrı mərkəzimiz var və abonentlər 199 nömrəsinə zəng edərək problemlərini çatdıra bilərlər", - deyə T.Mustafayev bildirib.

Bakı şəhərinin elektrik şəbəkələrində irimiqyaslı yenidənqurma işləri aparılmaqla yeni güc mərkəzləri yaradılıb, elektrik enerjisi itkilərinin azaldılması, enerji haqlarının vaxtında və tam şəkildə yığılması üçün təşkilati və texniki islahatlar aparılıb, beynəlxalq standartlara uyğun 110 və 35 kV-luq dairəvi elektrik təchizatı sxemləri, yeni 110;35;10;6 və 0,4 kV-luq elektrik şəbəkələri infrastrukturu yaradılıb.

# Mübariz Əhmədoğlu: "Həmsədr ölkələrin mövqeyində konkretlik və substantivlik yarandı"



***Məlum olduğu kimi, bu günlərdə ATƏT-in Daimi Şurasının keçirilən iclasında həmsədr ölkələrin ATƏT-dəki səfirləri çıxış edərək, son proseslərə öz münasibətlərini bildiriblər. Məsələ ilə bağlı Siyasi İnnovasiya və Texnologiyalar Mərkəzinin rəhbəri Mübariz Əhmədoğlu bildirib ki, həmsədr ölkələrin ATƏT-dəki səfirlərinin çıxışlarının hamısında əvvəlki illərlə müqayisədə keyfiyyət dəyişikliyi var idi: "Ən çox dəyişiklik isə Avropa İttifaqının mövqeyində idi. Bu, özü tənzimlənmədə yeni bir yanaşmadır. Fransalı səfir çıxışını ölkəsinin deyil, məhz Avropa İttifaqının təmsilçisi statusunda təqdim etdi. Bu, məruzənin mətnində də özünü göstərdi. Rusiyanın ATƏT-dəki səfiri A.Lukaşeviçin "Dağlıq Qarabağ" terminine istinadını isə başa düşmək çətin deyil. Rusiya siyasiləri içərisində ermənilərin rolunu Rusiya dövləti üçün həlledici kimi qiymətləndirənlər az deyil.***

Belə RF rəsmiləri üçün Rusiya dövlətini yaradan və rus xalqını pravoslav edən ermənilərdir. Bu kontekstdən A.Lukaşeviç erməni mövzusunda sonadək həqiqət daşıyıcısı hesab edilə bilməz. Həmsədrlər son səfərləri zamanı Dağlıq Qarabağda olmayıblar. Lukaşeviçin bu iqtibası onun sifariş qəbul etməsinin göstəricisi kimi qəbul edilə bilər".

M.Əhmədoğlu onu da vurğulayıb ki, ATƏT MQ-nin konsensus prinsipi ilə işləməsini A.Lukaşeviçin yada salmasına da ehtiyac yox idi: "Çünki ATƏT-in Yerevan ofisinin nizamnaməyə zidd fəaliyyətinin nəticəsi göstərdi ki, konsensus ermənilərin ziyanına da işləyə bilər. ATƏT-in strukturu olan MQ-nin fəaliyyətini iflic edən əsas faktor onun konsensus mexanizmi ilə işləməsidir. Məhz konsensus prinsipinə görə, Ermənistan digər vasitəçilikləri rədd edir, yalnız ATƏT MQ-ni dəstəkləyir. Lakin konsensusdan sui-istifadə Ermənistanın Dağlıq Qarabağ tənzimlənməsində mövqeyini də xeyli zəiflədir.

A.Lukaşeviç ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşikin ofisinin genişləndirməsinin alqoritminin razılaşdırılacağına inanır. Vurğu "alqoritm" sözünün üzərindədir. A.Kaspşikin missiyasının genişlənməsinin ən qızğın tərəfdarı Ermənistandır. Kaspşikin təmsilçilərinin sayının artırılmasını istəyirsə, Ermənistan dinc tənzimləməyə adekvat stimul verməlidir. Başqa sözlə, təmas xətti keçmiş DQMV-nin inzibati sərhədlərinə yaxınlaşdıqca Kaspşikin təmsilçilərinin sayı maksimuma çatacaqdır. Alqoritm budur. ABŞ-ın ATƏT-dəki səfiri Harri Kamianın çıxışı isə daha məzmunludur. Kamian Vyana və Sankt-Peterburq razılaşmalarına əməl etməyə çağırış etdi. Həm də səfir Kamian status-kvonun qəbuledilməz olduğunu bildirdi. ABŞ bu iki tezis arasında balans yarada bilib. Status-kvonun qəbuledilməzliyi Vyana və Sankt-Peterburq razılaşmaları üçün yeni təmas xəttini diktə edir. Səfir Kamian "ermənilər və azərbaycanlılar arasında da genişləndirilmiş dialoq" anlayışını ortalığa qoydu. Ermənilər və azərbaycanlılar arasında genişlənmiş dialoq dedikdə, həm də bu dialoqda Dağlıq Qarabağın azərbaycanlı və erməni icmalarının iştirakı da nəzərdə tutulur. Kaspşikin roluna yüksək dəyər verən Q.Kamianın çıxışından başa düşülür ki, Kaspşikin ofisinin genişlənməsi ATƏT-in 2018-ci il büdcəsində vəsaitin ayırmasından asılıdır. ATƏT-in büdcəsi isə konsensusla qəbul edilir. Tutaq ki, sxem Azərbaycanın istədiyi kimi olmasa, Azərbaycan konsensus verməyə bilər. Sen-Martenin sülhməramlı missiyada iştirakına Azərbaycan konsensus verməməlidir. Sülhməramlı missiyada Sen-Martenin iştirakı ermənilərdə əsassız ümid yaratmaqla, ermənilərin dinc tənzimləməyə maneəsini artıracaqdır. Aİ-ni təmsil edən fransalı səfirin fikrincə, Minsk Qrupu regionun gələcəyi üçün Dağlıq Qarabağ münaqişəsinin siyasi, ədalətli və davamlı həllini axtarır, Aİ bu işində ATƏT MQ-yə tam dəstək verir.

Etimad tədbiri kimi, Aİ EPNK çərçivəsində qarşılıqlı tamamlama prinsipi əsasında Minsk Qrupu ilə birgə fəaliyyətini genişləndirəcəyini bildirdi. Aİ-ni təmsil edən fransalı səfir, etimad tədbiri kimi, həm də prezidentlərin 2014-cü ildə Parisdəki görüşünü yada salır: Təkcə Vyana və Sankt-Peterburq razılaşmaları deyil, həm də Paris görüşündəki razılaşmalar da reallaşdırılmalıdır. O, Beynəlxalq Qırmızı Xaç Komitəsinin xətti ilə itkin düşənlərin siyahısının dəqiqləşdirilməsinə inam yaratmaq üçün vacib addım adlandırdı.

Aİ-nin məruzəsində yüksək səviyyəli hərbi planlaşdırma qrupunun rəhbərliyi ilə sülhyaratma missiyasının hazırlandığı göstərilir. Bu əməliyyata polkovnik Lampaltser başçılıq edəcəkdir. Lampaltserin sülhməramlıları Kaspşikin müşahidəçiləri ilə birlikdə fəaliyyət göstərəcəkdir.

Sülhməramlılar göndərəcək ölkələrin siyahısı da hazırdır: Makedoniya-keçmiş Yuqoslaviya Respublikası, Çernoqoriya, Serbiya, Albaniya, Bosniya-Hersoqovina və Sen-Marten. Bosniya-Hersoqovinanı çıxmaq şərti ilə qalan dövlətlərdə sülhməramlılar bəlkə də təlimlərə başlayıblar. Bunu ATƏT-in tənzimlənməyə qlobal yanaşması adlandırırlar. Amma bunun reallaşması üçün Azərbaycan və Ermənistan tərəfi razılığa gəlməlidir. Azərbaycanın mövqeyi bəllidir. Əsas maneənin müəllifi bu vaxtadək Ermənistan olub.

Aİ-nin məruzəsində regiona kəşfiyyat səfəri faydalı hesab edilir. Amma o da bildirilir ki, çox illərdir ki, bu işi həyata keçirmək mümkün deyil. Bunun da maneəsi Ermənistandadır.

Həmsədrlərin ortalığa qoyduğu dəyişikliklər içərisində bəzi məsələlər Azərbaycanın Ermənistanla regional və ikitərəfli əməkdaşlığını istisna edir. Həmsədr ölkələr bunu nəzərə almalıdır. Beləliklə, Dağlıq Qarabağ münaqişəsinin dinc tənzimlənməsinin arxitekturasının vacib komponentləri bəlli oldu. Bir az bundan öncə amerikalı həmsədr Şefer, məhz bunların konseptual açıqlamasını təqdim etmişdi: 1.Hərbi məsələlərin həlli. 2. Ərazilərin qaytarılması. 3. Statusun müəyyən edilməsi. 4. Bütün qaçqın və məcburi köçkünlərin ilkin yaşayış məskənlərinə qaytarılması.

Şeferin açıqlaması ATƏT-in Daimi Şurasının iclasında özünü göstərdi".

Politoloq onu da qeyd edib ki, qarşıdan ATƏT-in ministerialı gəlir: "Ənənəvi olaraq, bu ministerialda həmsədr ölkə nümayəndə heyətlərinin başçıları bəyanat yayacaqlar. Bu isə, Dağlıq Qarabağ tənzimlənməsində daha bir irəliləyiş yarada bilər".

**R.HÜSEYNOVA**

# Şəxsiyyət vəsiqələri ilə bağlı müddət dəyişdi




Azərbaycanda yeni nəsil şəxsiyyət vəsiqəsinin tətbiqi müddəti ilə əlaqədar qanunvericiliyə bəzi dəyişikliklər edilb. SİA-nın məlumatına görə, Milli Məclisin dünən keçirilən iclasında "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" qanuna müvafiq dəyişikliklər müzakirə olunub. Dəyişikliyə əsasən, 2019-cu il yanvarın 1-dək verilən şəxsiyyət vəsiqələri vətəndaş 25, 35, 50 yaşına çatanadək və ya vətəndaşın soyadı, adı, atasının adı, yaşayış yeri, ailə vəziyyəti, hərbi vəzifəsi dəyişilənədək, yaxud şəxsiyyət vəsiqəsi itənədək, yararsız hala düşənədək və ya vəsiqənin üzərindəki məlumatların səhv olduğu müəyyənləşdirilənədək qüvvədə qalır. Bu dəyişiklik 2019-cu il yanvarın 1-dən qüvvəyə minir. Qanunun hazırkı variantında bu müddət "2018-ci il 1 yanvar" kimi göstərilir.

Yeni dəyişikliklərə əsasən, 15 yaşı tamam olmamış Azərbaycan Respublikası vətəndaşının fərdi identifikasiya kartının 2020-ci il yanvarın 1-dən tətbiq ediləcəyini nəzərə alaraq, 15 yaşı tamam olmamış vətəndaşlara da 2019-cu il yanvarın 1-dən 2020-ci il yanvarın 1-dək olan müddətdə şəxsiyyət vəsiqəsi veriləcək. Qanunun hazırkı variantında bu dəyişikliyin 2018-ci il yanvarın 1-dən tətbiqi nəzərdə tutulur. Dəyişikliklər səsə qoyularaq qəbul edilib.



## Dağıdıcı düşərgədə kar-kor olmaq tendensiyaları...

**RƏFİQƏ**

***"Şəxsi ambisiyalar, gerçəklik və zaman çərçivəsində seçim etməkdə aciz-lik göstərənlər müxalifət düşərgəsində cəm olub"- deyəndə müxalifətdəkilər hay-küy salaraq, bu fikri qəbul etmirlər. Qəbul etmirlərsə, etməsinlər. O zaman bu gün müxalifət düşərgəsində nələr baş verir? Elə bu yazıda da maraqlar və iddialar üzərində bərqərar olmaq iddiasında olan müxalifətin hər saniyə sonluğa doğru yaxınlaşması ilə bağlı məqamlara toxunacağam. Çünki gerçək dəyərlərdən tamamilə uzaq düşmüş, loyal prinsiplərlə idarə olunan müxalifət üçün yekun nəticə göz qabağındadır. Xüsusilə də, ilin sonuna yaxın müxalifət yetkililərinin səsləndirmiş olduqları qeyri-ciddi bəyanatlar, birmənalı şəkildə mərkəzdənqaçma oyununa xidmət edir.***

### Əli Kərimli kimi antimilli ünsürün səsi birdəfəlik kəsilməlidir

Məhz belə bir məntiq isə acı sonluqdan qaçmağın mümkünsüzlüyünü özündə ehtiva etmiş olur. Daha dəqiq desək, müxalifət düşərgəsində yuxarılar aşağıları, aşağılar da yuxarıları eşitmir. Nəticədə, bir-birinə qarşı kar və kor olmaq tendensiyalarından, daha dəqiq desək, yekunda alışmaqda olan barış çəlləyi üçün bir kibrit çöpü olurlar. Vaxtilə "Sən məni saymırsansa, mən səni heç dünəndən saymıram və yaxud İsa Qəmbərin nazı ilə çox oynamalıydım? Müsavat Arif Hacılının dədə malı deyil ki? Burada məndən çox əziyyət çəkən yoxdur, onu yuxarı başa çəkilənlər isə başqalarıdır" deyən İbrahim İbrahimli və Sülhəddin Əkbər kimilərin dalınca da, qabağınca da Müsavatdan gedənlər obrazdan çıxmağın məqamını indi seçmişdilər.

Məntiq və düşüncə, qavramaq, söz eşidib kəlmə kəsmək insan üçün normal bir şeydir. Bu da real faktdır ki, insan digər canlılardan düşünüb qərar vermək xüsusiyyətlərinə görə üstün mövqedədir. "Dostunu mənə göstər, sənin kimi olduğunu deyim" atalarımız bu sözü boş-boşuna deməyiblər. Zaman-zaman AXCP sədri Ə.Kərimlinin şəhidlər üzərində mənfur, əxlaqa və mənəviyyata sığmayan siyasəti hər zaman müşahidə olunub. Bu fərdin işi-gücü ictimai rəydə özünəxas iyrənc obraz yaratmaq olub ki, normal düşüncəli ictimaiyyət daim belə adamı pisləyib. Söz yox ki, bu cür əxlaqsızlıqlara əl atan partiya sədrindən heç bir humanizm və insanpərvərlik gözləməyə dəyməz... Çünki bu gün Ə.Kərimli kimi antimilli və dağıdıcı müxalifət liderləri problemlərini öz maraqlarına uyğun şəkildə qabartmaqla, siyasiləşdirməklə həm ictimaiyyət arasında çaşqınlıq yaratmağa, həm bu kateqoriyadan olan insanlarla dövlət arasındakı münasibətlərə kölgə salmağa, həm də sosiumda Qarabağ müharibəsi ilə bağlı fikirlərə mənfi psixoloji nöqteyi-nəzərdən qiymətin verilməsinə cəhd göstərirlər. Düşünürəm ki, bu gün heç kəs susmamalıdır. Son vaxtlar keçirilən mitinqciklərdə Qarabağ müharibəsi əlillərinin və şəhid ailələrinin adından danışan Ə.Kərimli kimi antimilli ünsürün səsini birdəfəlik kəsmək lazımdır.

# Qarakənd faciəsindən 26 il ötür

***1991-ci il 20 noyabr tarixində Xocavənd rayonunun Qarakənd kəndinin yaxınlığında, Ağdam rayonunun Mərzili kəndi ərazisində erməni hərbiləşdirilmiş dəstələri tərəfindən vurulan Azərbaycan hərbi helikopter hadisəsindən 26 il ötür.***

Qeyd edək ki, 1991-ci il noyabrın 7-də Bakıda Qazaxıstan, Azərbaycan, Türkmənistan, Rusiya və Ermənistan həmsədrlərinin görüşü keçirildi. Görüşün səbəbi Qarabağ müharibəsi və hansı xalqın sıxışdırıldığını diqqətə çatdırmaq olmuşdur. Bu səbəbdən də, həmsədrlər razılaşırlar ki, hadisələri öz gözləri ilə görsünlər və Xankəndiyə getsinlər. 1991-ci il noyabrın 18-də Mixail Qorbaçovun şəxsi köməkçisi Kremldən Bakıya zəng vurur və Azərbaycan Respublikasının Dağlıq Qarabağ rəhbərliyindən xahiş edir ki, Təhlükəsizlik Şurasının növbəti iclasını Dağlıq Qarabağda keçirsin, çünki ərazidəki torpaq iddiasında olan erməni liderlərinin və Moskva nümayəndələrinin də bu iclasda iştirakı nəzərdə tutulur. Telefon zəngindən sonra Bakıda siyahı tərtib olunur. Siyahıya Viktor Polyaniçko rəhbərlik etməli idi. Nümayəndələr, ancaq güc nazirliklərindən və Təhlükəsizlik Şurasının rəhbər orqanlarından ibarət olmalıydı.

Mənbələrdə göstərilir ki, rayon komendantı Nikolay Jinkinin müavini, polkovnik Vladimir Kuşnarikin 1991-ci il noyabrın 18-də tərtib etdiyi və Bakı ilə razılaşdırılmış siyahısına “Aşanak” kolxozunun heyvandarlıq birliyinin sədri Emil Balayan, Vladimir Kuşnarikin özü, beynəlxalq erməni diasporu (əsasən, Fransa və Kaliforniya erməni kilsələri) tərəfindən maliyyələşdirilən “Krunk” təşkilatının Dağlıq Qarabağdakı ideoloqlarından Oleq Yeseyan, “Yevkrapa” cəmiyyətinin maliyyə məsələlərinə baxan, onun Livan erməni diasporu ilə əlaqələndiricisi Leonard Petrosyan, zabit Tatavis Baqramyan və Azərbaycan Xalq Cəbhəsinin Ağdam, Xocavənd, Füzuli, Cəbrayıl, Xocalı, Əsgəran rayon şöbələrinin liderləri və onların Bakı nümayəndəsi daxil olsun. Məşvərət lentə alınmalı və respublika televiziyasının “Günün Ekranı” xəbərlər proqramında göstərilməli idi. Saat 13:40 dəqiqədə Ağdam hava limanına veriləndən xəbərdən sonra bu adamlar vertolyota minmirlər.

Rəsmi Moskva iclasda dövlət katibi Tofiq İsmayılov və baş prokuror İsmət Qayıbovun hökmən iştirakını xahiş edir. Bu xahişi isə, məhz polkovnik Georgi Septa çatdırır. 1991-ci il noyabrın 19-u siyahı tərtib olunur və ilkin siyahı Tofiq İsmayılovun rəhbərliyilə müzakirə edilir. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıdan çıxarılır. Onların yerinə güc nazirliklərinin, qoşun birləşmələrinin rütbəli məmurları salınır. Siyahıya Viktor Polyaniçkonun başçılıq etməsi qüvvədə qalır.

Ancaq 1991-ci il noyabrın 19-da gecədən xeyli keçmiş siyahı təzələnir. Viktor Polyaniçkonun, güc nazirliklərindən seçilmiş şəxslərin adları siyahıdan çıxarılır. Millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov siyahıya daxil olunur. Tofiq



İsmayılov tərtib olunmuş siyahıya başçılıq etməli, Ağdamda Təhlükəsizlik Şurasının səyyar iclası keçirməliydi. Yeni siyahını Ayaz Mütəllibov 1991-ci il noyabrın 19-u, saat 23:00-da təsdiqləyir. Siyahıdakıların bəzilərinə hazırlıq üçün telefon zəngləri olunur. Dağlıq Qarabağa gedəcək adamların siyahısı DQ rəhbərliyinə, Ağdam hava limanına, hərbi komendanta və Moskvaya göndərilir. Qrupun Dağlıq Qarabağ ərazisindəki fəaliyyətinə isə üçlük nəzarət edir - Dağlıq Qarabağ təhlükəsizlik rəisi, polkovnik Georgi Septa, hərbi komendantın müavini, polkovnik Vladimir Kuşnarik və Xocavənd milis rəisi və polkovnik Oleq Osenov.

Gülablı və Yenikənd istiqamətlərində hərbi maşınlarda qurulmuş (M-16-26 və MS-22-22 nömrəli) və Ağdam, Xocalı hava limanlarının uçuş və enmə zolaqlarını nəzarətə götürən radarlar vasitəsilə saat 14:05-də Ağdamdan Qarakənd istiqamətinə uçan Mİ-8 N72 vertolyotun rabitə əlaqələri kəsilir. Qırılmış rabitə ilə bağlı ilkin məlumatlar Xocavənd istiqamətində ötürülür. Lakin törədilən faciə haqqında ilkin məlumat təqribən altı saatdan sonra verilir. Ağdam, Xankəndi və Xocavənd hərbi birləşmələrinin komandanlığı susurdu. Hesablamalara görə, Qarakənd üzərində üç yüz metr yüksəklikdə uçan Mİ-8 N72 vertolyotu 1991-ci il noyabrın 20-də saat 14:42 dəqiqədə vurulur. Faciə haqqında ilkin məlumat Prezident Aparatına saat 19:55-də çatır. Lakin bu faciə haqqında xəbər Xankəndidən erməni dilində yayımlanan “Vətən və vətəndaş” verilişinin xəbərlər bölümündə, saat 15:30-da yayımlanmışdı. Həmin gün Yerevan radiosu saat 16:15-də həmin xəbərin “qəza” kimi şərhini verir. Həmin məlumatı saat 16:40-da Tehran radiosu, 17:00-da Moskva radiosu açıqladı.

Həlak olanlar arasında Azərbaycan Respublikasının Dövlət katibi Tofiq İsmayılov, Baş prokuror İsmət Qayıbov, Dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov və Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri və jurnalist Osman Mirzəyev, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev var idi. Ümumilikdə, qəza nəticəsində 22 nəfər həlak olub.

İlkin olaraq, Azərbaycanın nümayəndə heyətinin məlumatına görə, cəsədlərdən 12-si tam şəkildə tanınırdı, 3-cü qismən tanınırdı, qalanlarının şəxsiyyəti isə ekspertiza nəticəsində müəyyən edildi.

Qeyd edək ki, 2010-ci il noyabrın 20-də Qarakənd faciəsi ilə bağlı qaldırılmış cinayət işinin istintaqı dayandırılıb. Səbəb hadisənin baş verdiyi ərazinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması idi. Cinayəti törədən şəxsləri müəyyənləşdirmək mümkün olmayıb. Azərbaycanın dövlət və ictimai xadimlərinin bir vertolyota yığılaraq vurulması xüsusi hazırlanan planın tərkib hissəsi idi. Vertolyotun isə ermənilər tərəfindən vurulması isə dəqiqləşib. Həmin şəxslərin bir vertolyotda uçması ilə bağlı ermənilərə dəqiq məlumat verilib və hər şey öncədən planlaşdırılıb.

Bütün bunlar müstəqilliyini təzəcə qazanmış Azərbaycana qarşı məkrli şəkildə hazırlanmış terror aktının tərkib hissələri idi. Hadisədən 26 il keçməsinə baxmayaraq, indiyədək terror aktının üstü tam açılmayıb və ermənilərin azərbaycanlılara qarşı həyata keçirdiyi digər soyqırımılar kimi, bu cinayəti törədənlər hələ də cəzasız qalıblar.

***NƏZAKƏT***

# Zamanın çağırışları: “Qarabağ Azərbaycanındır”

## *Erməni ictimaiyyəti bu çağırışla Sarkisyana istefa yolunu göstərir*

***Gözəl bir deyim var: tarixi həqiqətləri inkar etdikdə, reallıq hissi itirilir. Bu, həqiqətən də, belədir. Bu gün Ermənistan prezidenti Serj Sarkisyan başqalarına qarşı əsassız ittihamlarla çıxış etməklə, yalan və əsassız iddialar irəli sürməyə vərdiş etdiyi üçün rusların ermənilərə, daha doğrusu, Ermənistanını dövlət başçısına “it quyruğu” adı verilməsi ilə barışmalı olur.***

Bu yerdə bir məqamı da xatırlatmaq yerinə düşər: “yalan ayaq tutar, yeriməz”. S.Sarkisyan hansı formada yalan danışsa da, yenə də həqiqət üzə çıxır. Hətta Ermənistan Rusiyanın forpostu olsa belə, artıq işğalçı ölkənin iyrənc və çirkin yalanlarından bezərək, həqiqəti birbaşa efirdə belə səsləndirib.

Çünki Ermənistan qeyri-konstruktiv mövqe tutması ilə yanaşı, həm də ATƏT-in Minsk Qrupunun səmərəsiz fəaliyyəti nəticəsində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində heç bir irəliləyiş olmayan növbəti bir ili də uğursuz başa vurmaqdadır. Erməni xalqı artıq qaniçən Serj Sarkisyanın işğalçılıq siyasətindən boğaza yığılaraq, “ölüm, ya olum” dilemması qarşısında qaldığını bildirir. Həmçinin, Dağlıq Qarabağ uğrunda aparılan müharibənin mənasız olduğunu və bu yolda Ermənistanın işğalçı niyyətindən əl çəkməsinin vacibliyini deyirlər.

### Georgi Vanyan: “Erməni xalqı Ermənistanın işğalçı ölkə, Azərbaycanın haqlı mövqeyini dərk edir”



Erməni hüquq müdafiəçisi Georgi Vanyan Ermənistanın işğalçı ölkə olduğunu, Azərbaycanın haqlı mövqeyini müdafiə etdiyini bildirib: “Təəssüf ki, nə hökumətlərin, nə də ki, dünya ictimaiyyətinin konfliktin həllində marağı var. Bizim xalqların daxilində nə isə dəyişməlidir. Gərək, daxildə yeni proses, mədəni inqilab və beyinlərin inqilabı başlasın. Ancaq nə qədər ki, Sarkisyan hakimiyyətdədir, bu, mümkün olmayacaq”.

Ermənistanı işğalçı ölkə kimi tanıyan və Sarkisyan hakimiyyətini günahlandıran daha bir erməni İnsan Haqları və Azadlıqlarının Müdafiəsi təşkilatının rəhbəri, keçmiş siyasi məhbus və hüquq müdafiəçisi Vardan Arutyunyan ölkədə yaranmış bu ağır durumda Sarkisyanın uğursuz xarici və daxili siyasəti nəticəsində baş verdiyini bildirib: “Dağlıq Qarabağ Azərbaycanın tərkib hissəsi olub, yenidən Azərbaycana qaytarılmalıdır. Bu müharibənin davam etməsi Ermənistanı çox geri qoyur”. Bir faktı da qeyd edək ki, Vardan Arutyunyan Ermənistan hakimiyyətini birbaşa tənqid etdiyi üçün dəfələrlə təzyiqlərə məruz qalıb. Erməni hüquqşünası, hətta Prezident İlham Əliyevə müraciət edərək, Azərbaycan vətəndaşı olmaq istədiyini bildirsə də, erməni hökuməti buna imkan verməyib.

### İqor Muradyan: “Ermənistan hakimiyyətinin bizə məxsus olmayan torpaqları geri qaytarmaq istəyib-istəməməsi ilə bağlı sual artıq qapanıb”

Siyasi şərhçi İqor Muradyan Ermənistanın işğal etdiyi torpaqları qaytarmaqdan



başqa yolu olmadığını deyir: “Uzun illər ərzində ardıcıl olaraq Qarağbağın qaytarılması planını müzakirə etdikdən sonra onu qaytarmamaq qeyri-mümkündür. Müasir dünyada, bu, mümkün deyil”.

İqor Muradyan Ermənistan parlamentinin vitse-spikeri, hakim Respublika Partiyasının təmsilçisi Ermine Naqdalyanın Dağlıq Qarabağ ətrafındakı torpaqların Azərbaycana məxsus olması və yaxın zamanlarda qaytarılacağı barədə səsləndirdiyi ifadəni də xatırladır: “Ermənistanın indiki və keçmiş hakimiyyəti dəfələrlə xatırladıblar ki, aran Qarabağının torpaqları bizə məxsus deyil. Görünür, əraziləri qaytarmaq üçün daha əlverişli vəziyyətin təqdim olunmasını gözləyiblər. Ermənistan hakimiyyətinin bizə məxsus olmayan torpaqları geri qaytarmaq istəyib-istəməməsi ilə bağlı sual artıq qapanıb”.

Şərhçi Ermənistanın işğal etdiyi əraziləri əlində saxlamağa qadir olmadığını da vurğulayıb: “Yerevan kontoru (Ermənistan hakimiyyəti - R.H.) artıq Qarabağı əlində saxlaya bilmir. Amma hətta saxlaya bilirsə belə, Ermənistan strategiyanı kardinal şəkildə dəyişməsə, mövcudluğunu qoruya bilməyəcək. Təəssüf ki, hər şeyi 2017-ci ilin yazının əvvəlinə kimi etmək mümkün idi. Müharibə, sadəcə, uduzulmayıb, həm də tarixən uduzulub”.

***A.SƏMƏDOVA***

# Müsavat başqanı Arif Hacılının Brüsseldə səsləndirdiyi fikirlər xəyanətkarlıq nümunəsidir



***Avropa Parlamentində "Avropa və Şərq tərəfdaşlığı" mövzusunda müzakirələrdə iştirak etmək üçün Brusseldə səfərdə olan Müsavat başqanı Arif Hacılı müxtəlif ölkələrdən olan siyasi partiya və ictimai təşkilat rəhbərlərinin iştirak etdiyi müzakirələrə Azərbaycan müxalifətinin təmsilçisi kimi qatılıb. Amma o, çıxışı zamanı A.Hacılının səsləndirdiyi fikirlərlə demokratiya kimi ali prinsplərə hörmətsizlik nümayiş etdirdiyini açıq-aşkar ortaya qoyub. Demokratiyadan hər dəfə ağızdolusu danışan A.Hacılı, görünür, bu ali prinsiplərin qarayaxma, şər və böhtan olduğunu düşünür.***

İnsan hüquq və azadlıqlarına hörmətlə yanaşdığını vurğulayan Müsavat başqanının vətənini beynəlxalq təşkilatlar qarşısında öz şər və böhtan xarakterli çıxışları ilə nüfuzdan salmaq cəhdi utancvericidir. Əlbəttə ki, dağıdıcı müxalifət partiyalarında təmsil olunanların bu xisləti təkcə Azərbaycan ictimaiyyətinə deyil, həm də beynəlxalq təşkilatlara da bəllidir. Ölkəmizin ardıcıl olaraq imza atdığı uğurlu layihələri beynəlxalq ictimaiyyət görür və öz vətəninə, dövlətinə şər atmaqda mahir olan bu simalar artıq xəyanətkar kimi tanınır.

Azərbaycanda insan hüquq və azadlıqlarının məhdudlaşdırılmasını dilə gətirən A.Hacılı bilməlidir ki, istər beynəlxalq təşkilatlar, istərsə də ayrı-ayrı dövlətlər müxalifətin birbirinin ardınca keçirdiyi uğursuz mitinqlərdən xəbərdardır. Dağıdıcı müxalifətin keçirdiyi mitinqlərə şəhərin mərkəzində, metro yaxınlığında, xüsusi olaraq yer ayrılırsa, heç bir müdaxilə olunmursa, polis asayişin keşiyində dayanırsa, demokratiya marağında olan təmsilçinin fikirləri diqqəti cəlb edə bilməz.

### Elektoratı olmayan bu ünsürlərin xəyanətkar fəaliyyəti hamıya məlumdur

Utanmadan ölkə iqtisadiyyatı, sosial durum barədə qərəzli fikirlər bildirən Müsavat başqanı özünü Azərbaycanın imza atdığı layihələrdən, uğurlarından və gələcək perspektivlərindən xəbərsiz kimi göstərir. Amma artıq beynəlxalq miqyasda bu uğurlar dəyərləndirilir və ölkəmizin söz sahibi olduğu qəbul edilir. Hamıya, əsasən də, beynəlxalq qurumlara məlumdur ki, Azərbaycan hökuməti, elektoratı olmayan A.Hacılı kimi ünsürlərin yaratdığı təşkilatların, partiyaların, xəyanətkar fəaliyyətindən fərqli olaraq, əməli fəaliyyətlə məşğuldur və bu da, öz növbəsində, ölkənin inkişafına, tərəqqisinə, beləliklə də, beynəlxaq arenada nüfuzuna öz töhfəsini verməkdədir.

Göründüyü kimi, Müsavat partiyasının başqanı bir müxalifət nümayəndəsi kimi, Azərbaycan dövlətinin əleyhinə fəliyyət sərgiləyən ənənəsinə sadiqdir. Avropa Parlamentində Avropa və Şərq tərəfdaşlığı" mövzusunda müzakirələrdə çıxış edərkən A.Hacılı bu ənənələrə sadiq qalaraq ölkəmizin nüfuzuna xələl gətirmək məqsədilə fikirlər səsləndirməkdən zərrə qədər çəkinməyib.

### Dırnaqarası demokrat maliyyə möhtəkirinin sifarişi ilə dəridən-qabıqdan çıxır

Dəfələrlə xarici ölkələrə səfəri zamanı Azərbaycan əleyhinə şər və böhtan xarakterli fikirlər səsləndirən A.Hacılı bu dəfə də, xəyanətkar mövqeyini ortaya qoymaqla əslində, anti-Azərbaycan qüvvələrin sifarişini yerinə yetirir. Brüsseldə A.Hacılının səsləndirdiyi fikirlərin, eynilə "Soros" fondunun, Yaqlandın və onun timsalında ölkəmizin uğurlarını gözü götürməyən qüvvələrin fikirləri ilə üst-üstə düşməsi, onu deməyə əsas verir ki, Müsavt başqanı dünya miqyasında tanınmış maliyyə möhtəkirinin, onunla eyni mövqedə olanların sifarişini yerinə yetirmək üçün dəridən-qabıqdan çıxır. Sözsüz ki, o, bu canfəşanlığının Soros kimilərinin diqqətindən yayınmayacağına və onlar tərəfindən qiymətləndiriləcəyinə, nəticədə əldə etmək istədiyi vəsaitə yiyələnəcəyinə ümid edir. Bəli, məhz vətəndaşlığını daşıdığı ölkənin düşmənlərinin maliyyə dəstəyinə görə, bu cür xəyanətkar mövqeyi seçməsi göz qabağındadır. A.Hacılının bu vaxta kimi olan görüşlərini, fəaliyyətini yada saldıqda, onun budəfəki qarayaxmalarla, satqınçılıqla müşayiət olunan xəyanəti heç də təəccüb doğurmur. Əksinə, əgər Müsavat başqanı havadarlarına demokratiyanın inkişafında problemlərin, məhz onların təmsil olunduğu Avropada olduğu mesajını çatdırsaydı, bu təəccüb doğura bilərdi.

Azərbaycan ictimaiyyəti ölkədə quruculuq-abadlıq işlərini, inkişafa, tərəqqiyə xidmət edən fəaliyyəti, Cənab Prezident İlham Əliyevin uğurlu siyasətini dəstəkləyir, ölkə başçısının rəhbərliyi altında reallaşan layihələri, ümumilikdə, xalqın rifahına xidmət edən islahatları layiqincə dəyərləndirir. Müxalifət düşərgəsində təmsil olunan A.Hacılı kimilərinin xəyanətkar mövqeyi isə xalqın diqqətindən yayınmır və buna görə də, onlar heç zaman ictimai dəstəyə ümid etmirlər. Həmçinin, Müsavat başqanının Azərbaycan əleyhinə səsləndirdiyi böhtan xarakterli fikirlər, ümumilikdə, ermənipərəst qüvvələrə, ölkəmizə düşmən mövqedə olanlara yarınmağa xidmət edir. Bu da haqlı olaraq, daim ictimai qınağa səbəb olub və bundan sonra da olacaq.

***İnam HACIYEV***

# AXCP və Müsavatın min bir oyunu

## *Yenə də hər iki tərəf bir-birilərini ittiham və təhqir etməkdədir*

Ayının bir armud üstündə, min bir oyunu olduğu kimi, qarşıdakı prezident seçkiləri ərəfəsi Müsavat partiyası ilə AXCP arasında gedən qarşıdurma və söz savaşları da tam sürətilə davam edir. Bu günlərdə, Müsavatın keçmiş başqanı İsa Qəmbər dağıdıcı düşərgədə olan partiya sədrləri ilə görüş keçirəcəyini və "vahid namizəd" məsələsinin müzakirə olunacağını bildirib. Ancaq bir məsələni demək yerinə düşər ki, yenə də, həmişə olduğu kimi, bu seçkilərdə də adıçəkilən əzəli rəqiblər olan iki partiya arasında baş verənlər analoqsuzdur və bu görüşdə Əli Kərimli iştirak etməyəcəyini bildirib. Səbəb də bəllidir. Çünki ölkədə fəaliyyət göstərən digər müxalifət partiyaları arasında belə bənzər savaşlar olmayıb.

### Bu gün söy, təhqir et, "satqın", "yaltaq" adlandır, sabah yenə "dost" olaq

Hələ 2013-cü ildə Müsavat partiyası "Milli Şura"dan çıxarkən, AXCP ilə arasında yaşanan söyüş və təhqirlər dalğası iki təşkilatın aşkar sifətlərini ortaya qoymuşdu. Sonradan Müsavat partiyası sosial şəbəkələrdə və mediada qarşı tərəfə cavab verməmə moratoriumu elan etdi. AXCP isə bundan maksimum yararlanaraq, daha kəskin söyüş kampaniyasına başladı. Hətta Ə.Kərimlinin feysbukdakı söyüş qrupu bu məsələdə önçəkindən də fəal davrandı. Nəticədə, Müsavat tərəfi də moratoriumu çox saxlaya bilmədi və yenidən ara qarışdı.

Bu gün də belədir və susan tərəf yoxdur. Azərbaycan ictimaiyyətinə tanış olan bu kimi dağıdıcı, destruktiv qüvvələr belə oyunlardan kifayət qədər çox çıxıblar. Onlar, yeri gələndə, seçkilərdə iştirak etmək üçün hansısa bəhanələrlə "birləşiblər". Əgər xatırlayırsınızsa, 1998-ci il prezident seçkiləri ərəfəsində, onlar "SİDSUH" ("Seçki İslahatları və Demokratik Seçkilər Uğrunda Hərəkat") adlanan təşkilatda "birləşdilər". Lakin AXCP və Müsavat "vahid namizəd" məsələsində ümumi qərara gələ bilmədilər. Seçki boykot olundu və "SİDSUH" yoxa çıxdı. Həmin zaman da tərəflər arasında qarşılıqlı ittihamlar və təhqirlər uzun müddət davam etdi. Çoxları düşünürdü ki, bu iki partiya arasında münasibət birdəfəlik pozuldu. Amma növbəti seçkilərdə belə düşünənlər yanıldıqlarını gördülər. Bunlar, heç nə olmamış kimi, elə "mehribanlaşdılar" ki, hətta iki partiyanın birləşməsindən də dəm vurdular. Lakin bu da çox çəkmədi. Növbəti parlament və prezident seçkilərində başqa oyunlar oynadılar. Hər iki tərəfin yetkililəri açıqlama verərək, bildirirlər ki, qarşı tərəf körpüləri tamamilə yandırıb və ona görə də, bundan sonra əməkdaşlıq qeyri-mümkün görünür.

AXCP sədrinin müavini Nurəddin Məmmədlinin açıqlaması isə deyilənləri bir daha təsdiq edir. O, müsavatçıları ikiüzlülükdə günahlandırıb: "Siyasət elə bir sahədir ki, orada daimi dost və daimi düşmən olmur. Orada münasibətlər mövcud ictimai-siyasi proseslərə uyğun qurulur". Deməli, bu gün söy, təhqir et, "satqın", "yaltaq" adlandır, sabah yenə "dost" ol. Əhsən sizin apardığınız ikiüzlü siyasətə..."

Bu bir faktdır ki, çirkin oyunlardan xalq və eləcə də, mətbuat bezib. Amma görünən və hiss olunan odur ki, bir-birini çox kəskin şəkildə təhqir edən, satqın, "zombi dəstəsi", "Azərbaycanın taliban"ları, "güdükçü" adlandıran tərəflər, sadəcə olaraq, son anda saman çöpündən yapışmağa çalışırlar. Yaxın günlərdə növbəti dəfə bunun şahidi olacağıq.

***Rəfiqə HÜSEYNOVA***

## ABŞ: "Dekabrda İŞİD-in varlığına son qoyulacaq"

"İŞİD 2017-ci ilin sonuna kimi öz varlığını sürdürəcək." Axar.az xəbər verir ki, bu sözləri ABŞ Dövlət Departamentinin nümayəndəsi Brayan Xuk deyib. "ABŞ Dövlət katibi Reks Tillerson İŞİD-i məhv etmək üçün daim diplomatik yollar axtarır. Düşünürəm ki, ilin sonuna kimi İŞİD-in varlığına son qoyulacaq", - ABŞ rəsmisi bildirib.

## İraq ordusu İŞİD-in nəzarətindəki son bölgəni geri alıb

Dünən səhər İŞİD terror qruplaşmasının İraqda nəzarətdə saxladığı son bölgə olan Ravaya üç istiqamətdən həlledici hücuma keçən hökumət qüvvələri şəhəri terrorçulardan tam azad edib. AZƏRTAC Euronews telekanalına istinadla xəbər verir ki, hökumət qoşunlarının və yerli tayfalardan olan döyüşçülərin apardığı əməliyyat artilleriya atəşləri ilə müşayiət olunub. Koalisiya təyyarələri şəhəri bombalayıb. Rava şəhəri Suriya sərhədindən təxminən 100 kilometr məsafədə yerləşən kiçik yaşayış məntəqəsidir. Şəhər üzərinə hücumlar bir neçə gün əvvəl başlamışdı. O vaxt hərbçilər bildirirdilər ki, terrorçuların çoxu Suriyaya qaçdığı üçün Ravanı azad etmək çətin olmayacaq və çox vaxt aparmayacaq.

## Səudiyyə Ərəbistanı: şahzadələrə azadlığı pulla almaq təklif olunur

Korrupsiya barədə şübhələrə görə həbs edilən kral ailəsi üzvlərinə və məmurlara azadlıqları üçün pul ödəmələri təklif olunub. AZƏRTAC Vesti.ru saytına istinadla xəbər verir ki, həbs olunan bəzi şəxslərin öz varidatlarının 70 faizini dövlət xəzinəsinə köçürməsi tələb edilib. Hakimiyyət bu yolla neft qiymətlərinin ucuzlaşması nəticəsində boşalmış dövlət xəzinəsini doldurmaq istəyir. Financial Times qəzetinin yaydığı məlumata görə, saxlanılan bəzi varlı məmurlar vəsaitlərinin dövlətə verilməsi prosesinə başlayıb. Onların əksəriyyəti, o cümlədən dünyanın ən varlı şəxslərindən olan milyarder şahzadə əl-Valid bin Talal, "Əl-Ərəbiyyə" telekanalının sahibi Valid əl-İbrahim, həmçinin "Binladin" tikinti qrupunun sədri Bəkr bin Laden hazırda paytaxtın "The Ritz-Carlton" otelində həbsdə saxlanılır.

## Binəqədi rayonunda üçotaqlı ev və avtomobil yanıb

Binəqədi rayonunda yanğın baş verib. Fövqəladə Hallar Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, yanğın birmərtəbəli üçotaqlı evdə qeydə alınıb. Hadisə nəticəsində ev və "Mitsubishi" markalı minik avtomobili yanıb. Yaxınlıqdakı tikililər yanğından mühafizə olunub, alov yanğınsöndürənlər tərəfindən söndürülüb. Hadisə ilə bağlı müvafiq qurumlar tərəfindən araşdırma aparılır.

# Müstəqillik dövründə təhsil mədəniyyətinin inkişafına Ulu Öndər Heydər Əliyevin qayğısı

***Ulu Öndər Heydər Əliyev təhsilə yüksək qiymət verir, Azərbaycanın dünya mədəni məkanına inteqrasiyasında onun böyük rol oynadığını hədsiz dəyərləndirirdi: "Təhsil sisteminin nə qədər dəyərli olduğunu, ondan görmək olar ki, Azərbaycanda yüksək savada, biliyə, ixtisasa, yüksək elmə malik insanlar var və onlar cəmiyyətin çox hissəsini təşkil edir. Əgər bunlar olmasaydı, Azərbaycanın iqtisadiyyatı belə güclü inkişaf edə bilməzdi. Bunlar olmasaydı, Azərbaycanın elmi inkişaf edə bilməzdi. Bunlar olmasaydı, biz indi Azarbaycanı müstəqil dövlət kimi idarə edə bilməzdik. Onları qiymətləndirmək lazımdır və on illərlə əldə etdiyimiz nailiyyəti heç vaxt unutmamalıyıq".***

Ulu Öndər Heydər Əliyevin hakimiyyətə ikinci gəlişilə 1993-cü ildən başlayaraq, Azərbaycan təhsilində əsaslı dəyişikliklər və inkişaf baş verdi. Tarix elmləri doktoru İradə Hüseynova bu barədə belə yazır: "1993-cü il 15 iyundan Azərbaycanda başlanan qurtuluş hərəkatı Azərbaycan təhsilini də böhrandan, uçurumdan və fəlakətdən qurtardı. Heydər Əliyevin hakimiyyətə xilaskar missiyalı qayıdışı ilə təhsildə tənəzzül və dağılma prosesi dayandırıldı. Təhsilin öz məcrasına düşməsi, onun inkişafı üçün əlverişli iqtisadi şərait, hüquqi və mənəvi-əxlaqi mühit yarandı. Əbədiyaşar Prezidentimiz Heydər Əliyevin rəhbərliyi ilə respublikamızda həyata keçirilən sosial-iqtisadi, ictimai-siyasi, mədəni və dövlət quruculuğunda baş vermiş dəyişikliklər təhsil sistemində beynəlxalq standartlara uyğun əsaslı islahatların həyata keçirilməsini zəruri edirdi.

Məhz Heydər Əliyevin 1993-cü ilin oktyabrında Prezident seçilməsindən sonra təhsilin inkişafı Onun ən çox diqqət mərkəzində olan məsələlərdən oldu. Bu diqqət və qayğı Prezidentin rəhbərliyi ilə işlənmiş Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Azərbaycan Respublikasının Konstitusiyası ilə onbirillik icbari təhsilə keçirildi. Azərbaycan vətəndaşlarının pulsuz ümumi orta təhsilinə dövlət təminatı verildi".

Ulu Öndər Heydər Əliyev təhsilin inkişafını onun islahatlarında görürdü. Professor İradə Hüseynova dahi şəxsiyyətin təhsilin islahatları ilə fəaliyyətini belə səciyyələndirir: "Müstəqil Azərbaycan quruculuğu Heydər Əliyevin 30 mart 1998-ci il tarixli "Azərbaycan Respublikasında təhsil sahəsində islahatlar üzrə Dövlət Komissiyası haqqında" Sərəncamı ilə müstəqil Azərbaycanın təhsil sistemində beynəlxalq standartlara uyğun islahatların aparılması, təhsilin inkişafı və onun maddi-texniki bazasının möhkəmləndirilməsi üçün Ümumdünya Bankının vəsait qoyuluşunu təmin etmək və təhsil sahəsində islahat proqramını hazırlamaq məqsədilə Dövlət Komissiyası yaradıldı. Bununla da, təhsil sahəsində islahatların yeni tarixi mərhələsinin əsası qoyuldu. Dövlət Komissiyası tərəfindən qısa müddətdə hazırlanmış "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" geniş müzakirələrdən sonra Heydər Əliyev tərəfindən 1999-cu il iyunun 15-də tarixi bir gündə - Milli Qurtuluş Günündə xüsusi Sərəncamla təsdiqləndi. Beləliklə, çağdaş təhsil tariximizə şanlı bir səhifə yazılmış oldu.

Azərbaycan Respublikasının təhsil sahəsində dövlət siyasətinin əsaslarını və XXI əsr milli təhsil quruculuğunun aydın strategiyasını və prioritet istiqamətlərini verən həmin Proqramda milli təhsil sahəsində islahatların üç mərhələdə reallaşdırılması nəzərdə tutulur:

Birinci mərhələ - hazırlıq mərhələsi adlanır və bir il müddətində - 1999-cu ildə aparılacaq islahatın hüquqi-normativ bazasının yaradılmasını təmin etməlidir. Deməliyik ki, bu mərhələ üzrə nəzərdə tutulan bütün tədbirlər, əsasən, yerinə yetirilmiş, islahatın hüquqi-normativ bazası yaradılmışdır.

İkinci mərhələ (2000-2003), - qısamüddətli perspektivi əhatə edir və təhsil sahəsinin sosial-iqtisadi sabitliyini təmin edən təxirəsalınmaz məsələlərin həll olunması və genişmiqyaslı islahatın aparılması üçün təşkilati-hüquqi, kadr, maliyyə, maddi-texniki təminatın və yeni idarəetmə modelinin yaradılmasını nəzərdə tutur.

Nəhayət, sonuncu mərhələ 2004-cü ildən sonrakı mərhələ olub, Proqramda nəzərdə tutulan bütün tədbirlərin həyata keçirilməsini təmin etməlidir.

Təhsil sahəsində Heydər Əliyevin müəyyən etdiyi İslahat Proqramının əsas məqsədi - məktəbəqədər, orta, ali təhsil və ali təhsildən sonrakı peşə və ona uyğun əlavə təhsil pillələrində toplanmış potensialı saxlamaq və inkişaf etdirmək, təhsil sistemini tənzimləyən müvafiq hüquqi-normativ bazanı yaratmaq, Azərbaycan Respublikasının Konstitusiyasında, Təhsil Qanununda təsbit olunmuş, cəmiyyətin tələblərinə, onun siyasi, iqtisadi və sosial həyatının demokratikləşməsinə əsaslanan dövlət siyasətini həyata keçirməkdən ibarətdir.

"Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"nın başlıca məqsədini və təməl prinsiplərini əbədiyaşar Prezidentimiz Heydər Əliyevin irəli sürüb əsaslandırdığı aşağıdakı konseptual ideyalar təşkil edir:

Birincisi, təhsil sistemində hər bir islahatın, hər bir yeniləşmənin yalnız təkamül yolu ilə aparılmasını, bu prosesdə bütün cəmiyyətin iştirakının təmin edilməsini Heydər Əliyev təhsil islahatı üçün çox zəruri hesab edir: "Təhsil sistemi elə bir sistemdir ki, burada heç bir inqilabi dəyişiklik ola bilməz. Ümumiyyətlə, bizim həyatımızın bütün sahələrində dəyişikliklər təkamül xarakteri, tədrici dəyişikliklər xarakteri daşıyır... Təhsil Qanunu elə bir qanundur, təhsil islahatları elə islahatlardır ki, iqtisadiyyatdan, maliyyədən, başqa sahələrdən fərqli olaraq, bunda bütün cəmiyyətin iştirakı lazımdır..."

İkincisi, təhsil sahəsində aparılan islahatlarda, ilk növbədə, tarixən formalaşmış mütərəqqi ənənələrin, qazanılmış və zamanın sınağından çıxmış qabaqcıl təcrübənin yeni şəraitdə və yeni məzmunda nəzərə alınmasının zəruriliyini önə çəkən Heydər Əliyev vaxtilə keçmiş SSRİ kimi fövqəldövlətin 1984-cü ildə keçirdiyi məktəb islahatına rəhbərlik etmiş bir maarifçi kimi, bu sahədə zəngin təcrübəsi olan bir dövlət xadimi olaraq deyirdi: "Təhsil sahəsində qəbul edəcəyimiz Qanunda və İslahatlar Proqramında da məsələyə çox dəqiq və həssas münasibət göstərməliyik. Mənim fikrimcə, bu, ondan ibarət olmalıdır ki, Azərbaycanda təhsil sistemində indiyə qədər əldə olunmuş müsbət təcrübə və özünü doğrultmuş, müsbət nəticələr vermiş sistem saxlanmalı, inkişaf etdirilməli və müasirləşdirilməlidir".

Üçüncüsü, milli təhsil quruculuğunda dünya təcrübəsinin öyrənilməsini, Azərbaycanın milli xüsusiyyətlərinə uyğun gələn prinsiplərin tətbiqini vacib sayan Heydər Əliyev, xüsusi olaraq, tövsiyə edir ki, "Dünya təcrübəsindən Azərbaycanın milli xüsusiyyətinə uyğun olan prinsiplər, qaydalar təhsil sistemimizə tətbiq edilməlidir. Biz dünyanın bütün ölkələrində - Qərbdə də, Şərqdə də əldə olunmuş nailiyyətləri dərindən öyrənməli və onlardan Azərbaycan üçün müsbət xarakter daşıyan cəhətləri ölkəmizin təhsil sistemində tətbiq etməliyik".

Son dövrlərdə təhsil sahəsində beynəlxalq əlaqələr genişlənmişdir. Azərbaycan Respublikası Təhsil Nazirliyinin beynəlxalq əlaqələrinin əsas istiqamətləri tələbə, şagird və magistr hazırlığı mübadiləsi, birgə elmi tədqiqatlar, beynəlxalq forumlarda aktiv iştirak, beynəlxalq və regionlararası təhsil proqramlarına qoşulma və onların işində yaxından iştirak etməkdir.

Azərbaycan Respublikası Avropa (1979-cu il Paris Konvensiyası) və Cənubi-Şərqi Asiya (1983-cü il Banqkok Konvensiyası) regionları, o cümlədən, YUNESKO-nun Avropa Şurası ilə birlikdə hazırladığı (1997-ci il Lissabon Konvensiyası) təhsil sənədləri, diplomlar və elmi dərəcələrin qarşılıqlı tanınması haqqında konvensiyalara qoşulmuşdur. Artıq Azərbaycan təhsil sisteminin nümayəndələri YUNESKO, YUNİSEF, YUNEVOK, İSESKO, Avropa Təhsil Fondu, Avropa Şurası və Avropa İttifaqı kimi nüfuzlu beynəlxalq təşkilatların təhsil problemləri ilə məşğul olan qurumlarının işində fəal iştirak edir, onların təcrübə və köməyindən maksimum istifadə edirlər.

Dördüncüsü, milli təhsil sahəsində islahatlar prosesində xalqımızın milli-mənəvi xüsusiyyətlərindən, milli mentalitetindən, XX əsrdə təhsil sahəsində formalaşmış mütərəqqi milli ənənələrindən imtina edilməməsini vurğulayan Heydər Əliyev bu qənaətdədir ki, "Azərbaycanın reallığına, milli xüsusiyyətinə uyğun olan hər bir müsbət təklifdən istifadə etməli, onu öz təhsil sistemimizə tətbiq etməliyik. Ancaq indiyə qədər mövcud olan təhsil sistemində əldə edilmiş müsbət nəticələri və bu günün, gələcəyin tələblərinə uyğun gələn hər şeyi saxlamalı və inkişaf etdirməliyik..."

Beşincisi, təhsil sahəsində islahatların əsas məqsədini dünya təhsil sisteminə inteqrasiyada, milli təhsilimizin beynəlxalq standartlara uyğunlaşdırılmasında görən və bunu təhsil quruculuğunun perspektiv istiqaməti sayan Heydər Əliyev xüsusi olaraq vurğulayır: "Mən belə anlayıram ki, indi bizdə təhsil sistemində islahatların əsas məqsədi ondan ibərətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartlarına uyğunlaşsın. Yenə də deyirəm. Azərbaycanın təhsil sistemi son on illərdə müsbət nəticələr veribdir. Ancaq Azərbaycanın təhsil sistemində təhsil alan insanların və xüsusən də, ali məktəbləri bitirənlərin bilik səviyyəsi və onların biliklərini təsdiq edən sənədlər gərək dünyanın inkişaf etmiş ölkələrinin ali məktəblərinin bilik səviyyəsinə uyğunlaşsın. Onların prinsiplərinə uyğunlaşdırılsın ki, Azərbaycanda təhsil almış və mühəndis diplomu almış bir insan başqa ölkələrdə də həmin diplomla qəbul edilə və fəaliyyət göstərə bilsin..."

Altıncısı, təhsil sahəsində islahatın qısa müddətdə, tələm-tələsik aparılmasının yolverilməzliyini diqqətə çatdıran və bunu təhsil siyasətində zəruri amil sayan Heydər Əliyev deyir: "Yenə də deyirəm, əgər iqtisadiyyat sahəsində islahatları keçirmək üçün bir il, iki il yox, bir neçə il və ondan da çox vaxt tələb edilirsə, təhsil sahəsində islahatlar bundan daha çox vaxt tələb edir. Bunu anlamaq, bilmək lazımdır. Ona görə də deyirəm ki, burada inqilabi dəyişikliklər ola bilməz".

Ulu Öndər milli tariximizə aid dərsliklərin "Azərbaycan tarixi"nin tədrisinə xüsusi diqqət verirdi. "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı"na uyğun olaraq, Heydər Əliyev tərəfindən imzalanmış 13 iyun 2000-ci il tarixli "Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Sərəncamla ali təhsil müəssisələrinin dördünə maliyyə müstəqilliyi verilmiş, bir neçə yeni ali məktəb yaradılmış, bir çox ali məktəblərə "universitet" statusu verilmiş, milli təhsil tariximizdə kadr hazırlığında xüsusi əhəmiyyət daşıyan Azərbaycan Müəllimlər İnstitutu və onun müxtəlif bölgələrdə 12 filialı yaradılmışdır.

**Vahid ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "Azərbaycanın dövlətçilik tarixinin, milli adət-ənənələrinin, elm və mədəniyyətinin təbliği" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 18 noyabr


## "Forbes" ən çox pul qazanan məşhur gənclərin adlarını açıqlayıb



Efiopiya əsilli kanadalı ifaçı The Weeknd (Eybel Tesfaye) dünyanın ən çox pul qazanan və yaşları 30-dək olan məşhur gənclərin siyahısında ilk yeri tutub. AZƏRTAC "Forbes" jurnalına istinadla xəbər verir ki, onun əsasən konsert fəaliyyəti nəticəsində əldə etdiyi gəlirləri 2017-ci ildə 92 milyon dollara çatıb. Bununla yanaşı, müğənni "Starboy: Legend of the Fall" konsert turu ərzində hər çıxışına görə 1,1 milyon dollardan çox qonorar alıb.

23 yaşlı pop müğənnisi Castin Biber 83,5 milyonluq gəliri ilə ikinci yerdə qərarlaşıb. O, ilk dəfə "Forbes" jurnalının üz qabığına 2012-ci ildə 18 yaşında olarkən düşüb. Albom satışlarından və konsertlərdən 69 milyon dollar qazanan britaniyalı ifaçı Adel siyahının üçüncü sətrində yer alır. 29 yaşlı müğənninin uğuru "25" adlı son albomunun 2016-cı ildə 1,73 milyon nüsxəlik satışa nail olması ilə izah edilir. Reytinqin ilk onluğuna, həmçinin ABŞ-ın NBA və Milli futbol liqalarının oyunçuları, 27 yaşlı pop müğənnisi Teylor Svift, 20 yaşlı model Keyli Cenner daxildir. Nəşr bildirir ki, məlumatlar 2016-cı il iyunun 1-dən 2017-ci il iyunun 1-dək olan dövr üzrə qiymətləndirilib. Reytinqə daxil olan 30 məşhur gəncin ümumi illik gəlirləri 1,24 milyard dollardır.

## Çin gələn ildən sürücüsüz avtomobillər buraxacaq



Çin gələn ilin iyulundan sürücüsüz avtomobillərin kütləvi istehsalına başlamağı planlaşdırır. AZƏRTAC xəbər verir ki, Çinin qabaqcıl internet-axtarış sistemi olan "Baidu" şirkətinin baş direktoru Li Yanxun Pekində keçirilən konfransda ilkin olaraq "Kinq Long" markasından olan sürücüsüz minivanların istehsal ediləcəyini bildirib. O, rəhbərlik etdiyi şirkətin avtomobillərin sürücüsüz idarə olunması üçün müvafiq texnologiyaya sahib olduğunu qeyd edib. Artıq uğurlu test yürüşləri də keçirilib. Növbəti mərhələdə Çinin "JAC" və "BAİC" şirkətlərinin avtomobillərində müvafiq texnologiya quraşdırılacaq.

## Misirdə qədim məbədin qalıqları tapılıb

Misir yaxınlığındakı Gəlyubiyyə əyalətində yeni binanın tikintisi üçün aparılan qazıntı işləri zamanı inşaatçılar qədim məbədin qalıqlarını aşkar ediblər. Bu barədə Misirin "Əl Youm al Sabia" nəşri məlumat yayıb. AZƏRTAC xəbər verir ki, tikinti yerinə dəvət olunan arxeoloqlar və ekspertlər məbədin Hor, İsida və Osiris tanrılarına aid olduğunu təxmin edirlər. Alimlərin fikrincə, yerin altında məbədin qalıqlarından əlavə, qədim şəhərin də olmasına böyük ehtimal var. Qeyd olunur ki, yerin altında tapılmış məbədin divarlarının hissələrinin üstündə tanrıların təsvirləri və qədim Misir heroqlifləri var. Tapıntının hansı dövrə aid olduğu hələ müəyyənləşdirilməyib. Hazırda tikinti işləri dayandırılıb və arxeoloji qazıntılar aparılır.

## ELAN

Azərbaycan Dövlət Universitetinin İbtidai təhsil fakültəsinin IV kurs tələbəsi Bəhrəmzadə Səbinə Cümşüd qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

* * *

Azərbaycan Dövlət Pedaqoji Universitetinin Filologiya fakültəsinin ingilis dili müəllimi ixtisası üzrə I kurs tələbəsi Əliyeva Nəzakət Mübariz qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.

## Sərbəst güləşçilərimiz beynəlxalq turnirdə iştirak edəcəklər

Noyabrın 18-19-da Rusiya Federasiyasının Vladiqafqaz şəhərində sərbəst güləş üzrə "Alans" beynəlxalq turniri keçiriləcək. Gənclər və İdman Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, baş məşqçi Firdovsi Umudov və məşqçi Rövşən Hacıyevin rəhbərliyi ilə turnirdə yığma komandamızın 8 üzvü mübarizə aparacaq. Komandamızın heyətində Əfqan Xaşalov, Georgi Edişeraşvili (hər ikisi 57 kq), Ağahüseyn Mustafayev (65 kq), Məhəmməd Müslümov, Ruslan Dibirhacıyev (hər ikisi 70 kq), Aleksandr Qostiyev (86 kq), Şərif Şərifov və Aslanbek Alborov (hər ikisi 97 kq) yer alıblar.

I-S kateqoriyalı hakim Hicran Şərifov Dünya Güləş Birliyi tərəfindən hakim-instruktor təyin edilib və turnirin gedişinə nəzarət edəcək. Görüşlərin idarə edilməsində isə ölkəmiz beynəlxalq dərəcəli hakim Zaur Şərifov ilə təmsil olunacaq. Turnirin proqramına əsasən, noyabrın 18-də 57, 65, 74 və 97 kiloqram, noyabrın 19-da isə 61, 70, 86 və 125 kiloqram çəkilərdə pəhləvanlar arasında qaliblər müəyyənləşəcək.

## Elçin Məmmədov ÇSKA-"Benfika" oyununa təyinat alıb

AFFA-nın Lisenziyalaşdırma qrupunun rəhbəri Elçin Məmmədov UEFA tərəfindən yeni təyinat alıb. AZƏRTAC AFFA-ya istinadla xəbər verir ki, E.Məmmədov futbol üzrə UEFA Çempionlar Liqasının qrup mərhələsi çərçivəsində keçiriləcək ÇSKA (Rusiya)-"Benfika" (Portuqaliya) oyununda matçın direktoru (UEFA Venue Director) kimi fəaliyyət göstərəcək. Qeyd edək ki, görüş noyabrın 22-də Moskvadakı "ÇSKA Arena"da təşkil olunacaq.

## "Atletiko" səhmlərinin 15 faizini satıb



"Qarabağ"ın Çempionlar Liqasının qrup mərhələsindəki rəqibi "Atletiko" səhmlərinin 15 faizini satıb. SİA xəbər verir ki, bu barədə klubun rəsmi saytı məlumat yayıb. Səhmlərin 15 faizini Quantum Pacific Group" şirkətinin sahibi İdan Ofer alıb. İsrailli biznesmen bunun üçün 50 milyon avro ödəyib. Əldə olunan anlaşmaya görə, bu məbləğ "Atletiko"nun fonduna keçəcək və bütün digər hissədarlar bundan faydalana biləcəklər.



## Şumaxerin bolidi hərracda 7,5 milyon dollara satılıb

"Formula-1"in yeddiqat çempionu Maxel Şumaxerin yarış bolidi Nyu-Yorkda keçirilən "Sotheby's" hərracında 7,5 milyon dollara satılıb. SİA-nın "RİA Novosti"yə istinadən verdiyi məlumata görə, bu barədə hərrac evi bildirib. Hərrac evinin məlumatında deyilir: "Kəmərləri bağlayın. Mixael Şumaxerin Monako Qran Prisində qalib gəldiyi "Ferrari" yarış bolidi 7,5 milyon dollara satıldı". Hərrac evində qeyd ediblər ki, ilk dəfə müasir incəsənət hərracına avtomobil qoyulub və bu qərar özünü doğruldub.

## "Neftçi" azarkeşlərə səsləndi



Topaz Premyer Liqasının 12-ci turunda "Qəbələ"ni qəbul edəcək "Neftçi" azarkeşlərini stadiona səsləyib. SİA-nın məlumatına görə, paytaxt təmsilçisinin klub televiziyası bununla bağlı maraqlı videoçarx hazırlayıb. Videoda "ağ-qaralar"ın bir neçə futbolçusu komandanın ev oyunlarını keçirdiyi 8-ci km qəsəbə stadionunda boş tribunalar önündə görüntülənib, eləcə də "Hamı stadiona" çağırışını edib. Qeyd edək ki, oyun noyabrın 19-u, saat 17:00-da başlayacaq.


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in kompüter mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500